Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

21
MAY
2020-ci il
№ 82 (4213)
Qiyməti
40 qəpik

Həftədə
5 dəfə çıxır

Qəzet
2003-cü ildən
nəşr olunur

## PAŞİNYAN «QAZA VAHİD QİYMƏT», PUTİN «ƏVVƏLCƏ VAHİD BÜDCƏ VƏ VAHİD VERGİ SİSTEMİ» DEDİ - ERMƏNİSTAN AVRASİYA İB-nin STRATEGİYASINI İFLİC ETDİ...

səh. 8

Koronavirusla mübarizədə Azərbaycanın nəticələri, əhalisi eyni olan dövlətlərin nəticələri - fərq Prezidentin dediyi qədərdir... səh. 4

Prezident rəqəmsallaşdırmanı Azərbaycanın əsas prioritetlərindən biri elan etdi səh. 10

Ermənistan əsas zərbəni Naxçıvandan gözləyir - İrəvan panik durumda... səh. 9

Düdənginski hara, yəhudiləri qətl edən 20 minlik erməni legionunun başçısı Njde hara... səh. 7

YAP rəhbərliyində və idarəçilikdə islahatlar mövzusu gündəmdə - içdən və çöldən reaksiyalar... səh. 4

Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi təsdiqləyən beynəlxalq sənədlər... səh. 6

Azərbaycan pandemiya dövründə də iqtisadi sahədə mühüm nümunə yarada bildi səh. 12

Azərbaycan dollar siyasətinə yenidən baxmağa hazırlaşır səh. 13



səh. 5

## Azərbaycanda şəhid ailələrinə mənzil, avtomobil - Ermənistanda, sadəcə, siyasi oyun... «Bakılı qaçqınlara» dəstəyin arxasında məkr...



**Pandemiya dövründə Azərbaycanın növbəti davranış nümunəsi - 13 dövlətə, 3 beynəlxalq təşkilata «reklamsız» yardım...** səh. 3

**Paşinyanın Ermənistanda yenidən virus dalğası şüvəni - həqiqətdirsə, mayın 21-də Xankəndidə qondarma inauqurasiya nə deməkdir...** səh. 5



**İsrail mediasında Ermənistanın faşizm təəssübkeşliyinə sərt etirazlar başladı** səh. 3

səh. 2
"Prezident çıxışı ilə ölkə siyasətinin uğurlu nəticələrinin icmalını təqdim etdi"



səh. 8
Rusiya əleyhinə Paşinyançı təbliğat tündləşir - "Avrasiya İB Moskvanın həbs düşərgəsidir"...



səh. 11
DİN-in aqrar sektorda və iaşədə "məcburi əmək monitorinqləri" barədə təşəbbüsü dəstəklənir



səh. 11
DOST mərkəzlərində göstərilən 130 növ xidmət insanlarımızın rifahı üçün nə deməkdir...



səh. 14
Bakıda maraqlı pandemiya monitorinqi - cəmi 10 faiz əhali maska taxır



## Masallı sakini İsgəndər Məmmədəliyev aztəminatlı ailələrin uşaqlarının təhsilhaqları barədə Prezidentə nə yazdı...

**Pandemiya dövründə əhalinin aztəminatlı təbəqəsinə müxtəlif dəstəklərin göstərilməsi, habelə bu qəbildən olan ailələrin övladlarının təhsil haqlarının dövlət hesabına ödənilməsi vətəndaş məmnunluğuna səbəb olub.**



Masallı rayonundan Məmmədəliyev İsgəndər Əvəz oğlu Prezident İlham Əliyevə yazdığı məktubda bundan bəhs edir: "...Epidemiya ilə əlaqədar olaraq iş yerlərinin müvəqqəti bağlanmasına görə insanlara dövlət tərəfindən maddi köməyin edilməsi, aztəminatlı ailələrin övladlarının təhsilhaqqının dövlət tərəfindən ödənilməsi, eyni zamanda, işsiz insanlara iki ay müddətinə birdəfəlik ödənişin edilməsi, tibb işçilərinin əməkhaqlarının 3-5 dəfə artırılması, haqqı ödənilən sosial iş yerlərinin açılması Sizin xalqımıza olan sevginizin daha bir göstəricisidir. Bizə göstərdiyiniz diqqət və qayğıya görə Sizə təşəkkür edirəm".

***Baki-xeber.com***

## Tərtərdən Sadiq Quliyev Prezidentə "...özümüzü sizə borclu bildik" deyə yazdı...

**Prezident İlham Əliyevin pandemiya dövründə əhalinin təhlükəsizliyi, sağlamlığı və sosial təminatının yüksəldilməsi üçün atdığı addımlar, verdiyi qərarlar Tərtər sakinləri tərəfindən də təqdir edilir.**



Öz məktubunda Prezidenti bütün tərtərlilər adından salamlayan Sadiq Quliyev "Bütün dünyanın aciz qaldığı pandemiyaya qarşı mübarizədə Sizin xalqla birlikdə "Biz birlikdə güclüyük!" şüarı altında həmrəy olaraq atdığınız qətiyyətli və humanist addımlar həm xalqın Sizə olan inamını və sevgisini daha da artırdı, həm də Sizin rəhbərliyiniz altında Azərbaycan dünya dövlətlərinə nümunə olaraq rəğbət qazandı. Bu gün Tərtərdə imkansız ailələrə əl tutmaq, yardım etmək bir hərəkata çevrilib. Buna görə də mən bütün tərtərlilərin Sizə minnətdarlığını çatdırmağı özümə borc bildim" - deyə yazır.

***Baki-xeber.com***

# Azərbaycan XİN: "..."andiçmə" şousunun təşkili Ermənistanın ilhaqçı siyasətinin növbəti bariz nümayişidir"

**Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində işğalçı Ermənistanın təşkil etdiyi qanunsuz "seçkilərin" və qondarma "andiçmə" şousunun təşkili Ermənistanın ilhaqçı siyasətinin növbəti bariz nümayişidir.**

Baki-xeber.com xəbər verir ki, bu barədə Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin açıqlamasında deyilir.



Bildirilir ki, Azərbaycan Respublikasının Konstitusiyası, həmçinin beynəlxalq hüququn norma və prinsiplərinə ziddiyyət təşkil edən və müvafiq olaraq, beynəlxalq ictimaiyyət tərəfindən birmənalı şəkildə rədd edilən qondarma "seçkilərin" nəticələrinin hər hansı bir hüquqi qüvvəsi yoxdur və ola da bilməz. Azərbaycanın işğal olunmuş ərazilərində qurulmuş separatçı rejim təcavüzkar Ermənistanın Azərbaycana qarşı qeyri-qanuni güc tətbiqi, ərazilərinin beşdə birinin işğalı, qanlı etnik təmizləmə və yüz minlərlə məcburi köçkünün fundamental hüquqlarının pozulmasının nəticəsidir.

Azərbaycan xalqının tarixi-mədəni irsində xüsusi əhəmiyyəti olan Şuşa şəhərində "andiçmə" adı altında təşkil edilən bu təxribatda təcavüzkar Ermənistanın baş nazirinin iştirakı, özünü "demokrat" kimi təqdim edən birinin demokratiya anlayışına qara ləkə sürməsindən başqa bir şey deyildir.

Azərbaycanın Dağlıq Qarabağ və ətraf rayonlarının hərbi işğalının davam etdiyi və Dağlıq Qarabağın azərbaycanlı əhalisinin zor gücünə didərgin salınaraq seçki hüquqlarından məhrum edildiyi bir şəraitdə hər hansı "seçki" və ya "andiçmə"dən danışmaq hüquqa zidd olduğu qədər, heç bir sağlam məntiqə sığmır və beləliklə də hamılıqla pislənir və rədd edilir.

Müharibə hələ bitməyib və Azərbaycan beynəlxalq tanınmış sərhədləri çərçivəsində ərazi bütövlüyünün bərpasını bütün mümkün vasitələrlə təmin etmək hüququna malikdir. Ermənistan rəhbərliyinin bu kimi təxribatçı fəaliyyəti münaqişənin sülh yolu ilə həlli cəhdlərini demək olar ki, heçə endirməklə, bölgədə gələcək hərbi qarşıdurmanın və gərginliyin artmasına xidmət edir.

Heç kəs şübhə etməsin ki, işğal olunmuş ərazilərimiz işğaldan azad olunacaq, beynəlxalq tanınmış sərhədləri çərçivəsində Azərbaycanın ərazi bütövlüyü bərpa olunacaq və məcburi köçkünlərin fundamental hüquqları təmin ediləcək.

# ABŞ koronavirusla mübarizə məqsədilə Azərbaycana 3,6 milyon dollara yaxın vəsait ayırdı

**ABŞ COVID-19 pandemiyası ilə mübarizə məqsədilə Azərbaycana 3,6 milyon dollara yaxın vəsait ayırıb. "Trend" bu barədə ABŞ Dövlət Departamentinin saytına istinadən məlumat verir.**

Qeyd olunub ki, həmin məbləğin 3 milyon dolları laboratoriya sistemlərinin hazırlanması, koronavirusa yoluxma hallarının aşkarlanması üzrə işlərin fəallaşdırılması, texniki ekspertlərin dəstəklənməsi və bu istiqamətdə digər tədbirlər üçün ayrılıb. Bundan başqa, daha 565 min dollar isə pandemiya zamanı miqrant və qaçqınlara humanitar yardımı əhatə edir. Son 20 ildə ABŞ Azərbaycana ümumilikdə 894 milyon dollardan çox, o cümlədən səhiyyə sahəsinə 41 milyon dollara yaxın sərmayə qoyub.

# Aydın Quliyev: "Prezident çıxışı ilə ölkə siyasətinin uğurlu nəticələrinin icmalını təqdim etdi"

**"DOST mərkəzinin açılışında Prezident İlham Əliyev əslində həm də son aylarda Azərbaycanın əsasən daxili və qismən də xarici siyasətinin əsas istiqamətlərdəki uğurlu nəticələrinin icmalını təqdim etdi. Ölkə və beynəlxalq ictimaiyyətin Azərbaycanda koronavirusla aparılan mübarizənin üsul və formaları, gedişi və nəticələri barədə bilgiləri xeyli genişləndi".**



Bu fikirləri SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.

O bildirib ki, ölkə başçısının çıxışı Azərbaycanda pandemiya ilə mübarizənin sistemli şəkildə aparıldığı, bu mübarizənin əsas hədəfinin insanların sağlamlığı və rifah tənəzzülünün qarşısını almaq olduğuna bir daha əminlik yaratdı:"İctimaiyyətə daha səmərəli dövlət xidmətlərinin, münasib üsulların tətbiqinin Azərbaycan dövləti üçün müstəsna vacib olduğu bir daha nümayiş etdirildi. Daha maraqlı məqam Azərbaycanın bəzi təcrübələrinin digər dövlətlərlə müqayisəsində üzə çıxdı. Prezident tam haqlı olaraq pandemiya ilə mübarizədə Azərbaycanı, hətta inkişaf etmiş ölkələrdən fərqləndirən əsaslı məqamlara diqqət çəkdi".

Ekspert söyləyib ki, sosial qayğıya ehtiyacı olanlarla bağlı dövlət siyasətimizin əsaslarının Ermənistanla müqayisəsi çox əhəmiyyətlidir:"Həqiqətən də Azərbaycanda şəhid ailələrinə ev, maşın və sair hədiyyə edildiyi halda, Ermənistanda bu istiqamətdə fakt yoxdur. Tək ona görə yox ki, Ermənistanın iqtisadiyyatı zəifdir, həm də ona görə ki, başqa ölkənin torpaqlarında ölmüş erməni əsgərlərinə hədiyyələr edilməsi çətin suallar doğura bilər". A.Quliyev vurğulayıb ki, Prezident İlham Əliyevin çıxışı ilə əhaliyə hələ uzun bir dövr ərzində hərtərəfli sosial xidmətlərin göstəriləcəyinə də əminlik yaratdı:"30-dan artıq DOST mərkəzinin açılacağı real bir hədəf kimi qarşıya qoyuldu və bu hədəfin fəth edilməsi hər il milyonlarla insana xidmət və onların ən adi xidmətlər üçün izafi resurslar sərf etməkdən xilas olması deməkdir. Prezident əhaliyə hazırkı pandemiya şəraiti barədə dəqiq məlumat verməklə, həm təhlükənin hələ tam sovuşmadığını, həm də hər şeyin ciddi nəzarət altında olduğunu bir daha xatırlatdı".

O qeyd edib ki, ölkədə xidmət, idarəçilik və istehsal sferasının rəqəmsallaşdırılmasının mühüm prioritetlərdən biri elan edilməsi Prezidentin çıxışının məzmununa dərin diqqət yönəldən məqamlardan biridir:"İnformasiya-kommunikasiya texnologiyalarının hərtərəfli tətbiqi Azərbaycanın innovasiyalara və bu sahədə səmərəli fəaliyyət göstərən xarici investorlarla işləməyə nə qədər açıq ölkə olduğunu ifadə edir. Əslində Prezident dünyanın ən nəhəng kommunikasiya-informasiya şirkətlərinə yaxın bir neçə il üçün ən əhəmiyyətli əməkdaşlıq istiqamətini göstərdi. "Biz açıq ölkəyik, gəlin və ilk növbədə Azərbaycan xalqının rifahı naminə ölkəni rəqəmləşdirək" platformasının elementləri faktiki ortaya qoyuldu".

Dövlət başçısının ötəngünkü çıxışında Azərbaycanın gənclər siyasətinin əsas tezislərinin bir daha ifadə edildiyini deyən ekspert əlavə edib ki, Prezident gəncliyə niyə bu qədər önəm və güvən göstərdiyinin səbəblərini bir daha təhlil etdi:"Prezidentin məhz bu çıxışında gənclərin çox vacib şəkildə nəticə çıxarmalı olduqları məqamlar var. Ölkə başçısının sözlərini ilk növbədə son ildə vəzifəyə təyin edilmiş gənc kadrlara aid etmək lazımdır.

Faktdır ki, bir neçə il əvvələ qədər kadr təyinatlarında əsasən orta və yaşlı nəsil təmsilçilərinə üstünlük verilirdi. Bu yaş qrupuna aid kadrlarının məsuliyyəti və fəaliyyətinin ölkə üçün həlledici olması bu qədər parlaq şəkildə vurğulanmırdı. Lakin DOST mərkəzinin açılışında çıxış edən Prezident gənc kadrlara nə qədər güvəndiyini və onlardan nələr gözlədiyini bir daha ifadə etdi. Bu dəqiq və birmənalı etimadı qırmaq həm vəzifələrdəki gənc kadrlar, həm də ümumiyyətlə gənclik üçün fəlakətli olardı. Hər bir gəncin bu vəziyyətdən lazımi nəticə çıxarması zəruridir".

**"...Bu günə qədər biz 13 ölkəyə yardım göstərmişik və bu haqda ancaq son vaxtlar danışmağa başlamışıq. Biz təyyarələrlə yardımlar göndərmişik, yüzlərlə ton yardım göndərmişik". Bunu Prezident İlham Əliyev Bakının Nizami rayonunda yeni istifadəyə verilən 3 saylı DOST mərkəzi ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına müsahibəsində deyib.**

*"Belə ağır günlərdə xüsusən də ehtiyacı olan dövlətlərə Azərbaycan öz yardım əlini uzatdı"*

# Pandemiya dövründə Azərbaycanın növbəti davranış nümunəsi - 13 dövlətə, 3 beynəlxalq təşkilata "reklamsız" yardım...

***Azər Həsrət:** "...özünü reklama da yer verməməsi ayrıca qeyd edilməlidir"*



Prezident qeyd edib ki, xarici ölkələrə Azərbaycanda istehsal olunan dezinfeksiya vasitələri, qoruyucu vasitələr və digər əşyalar göndərmişik, amma bunu reklam etməmişik: "Bunu mənəvi borc bilərək etmişik, o ölkələrə ki, onlar bizə müraciət edib. Biz bilirik, o ölkələrin maliyyə vəziyyəti imkan vermir ki, onlar lazımi tədbirləri görsün. Əminəm ki, bu yardım bir çox insanın həyatını xilas etdi. Əsas məsələ budur. Beləliklə, 13 ölkəyə artıq yardım göstərilib, o cümlədən, üç beynəlxalq təşkilata yardım göstərilib. Bu, bir daha bizim məsuliyyətimizi göstərir".

Siyasi şərhçi Azər Həsrət "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan dövləti və onun Prezidenti İlham Əliyev bəşəri məsuliyyəti dərk edən dövlət və rəhbərdir. "Yəni bizim ölkəmiz bəşər qarşısında öz məsuliyyətini daha dəqiq dərk edən dövlətlərin önündə gedir. Ona görə də bu cür qlobal problemlər ortaya çıxanda Azərbaycan dövləti dərhal hərəkətə keçir. O baxımdan da Azərbaycan heç kimin xahişini, minnətini, istəyini gözləmədən, hər zamankı kimi, pandemiya dövründə də məsuliyyətli davrandı. Yəni həm ölkə daxilində vətəndaşların bu problemdən qorunması üçün operativ tədbirlər həyata keçirildi, həm də beynəlxalq səviyyədə işlər görüldü. Belə ağır günlərdə xüsusən də ehtiyacı olan dövlətlərə Azərbaycan öz yardım əlini uzatdı və bu da çox təqdirəlayiqdir. Təbii ki, pandemiyaya qarşı mübarizədə öndə gedən beynəlxalq təşkilatlar da gözardı edilmədi. Azərbaycan bu cür davranır və bu davranışı göstərmək üçün də imkanlara malikdir. Dövlətimiz, sadəcə olaraq, məsələn, Ermənistan kimi özünə qapanıb yalnız özünü düşünmür, Azərbaycan dövləti bütün dünyanın taleyinə biganə deyil və başqa mütərəqqi xalqların dövlətləri ilə birlikdə öz imkanlarını paylaşmağa üstünlük verir. Bizim dövlətimiz və onun başçısı yaxşı bilir ki, təkcə bir ölkə içində sərhədləri qapadaraq heç bir dövlət, xalq xoşbəxt ola bilməz. Ümumi bəşəri xoşbəxtlik əl-ələ verib qlobal problemləri birlikdə çözməkdən keçir. Bu, Azərbaycan dövlətinin söykəndiyi fəlsəfədir. Ona görə də Azərbaycan kiçik bir dövlət olmasına rəğmən, dünyanın ən böyük gücləri, ən böyük dövlətləri bizim dövlətimizlə hesablaşır. Bizim dövlətimizin mövqeyi onlar üçün hər zaman maraqlı olub. Pandemiya dövründə də Azərbaycan ən parlaq, diqqətçəkən dövlətlərin önündə gedir".

A.Həsrət qeyd etdi ki, pandemiya ilə bağlı prosesləri hazırda proqnozlaşdırmaq çox çətindir. Amma pandemiya ilə bağlı indiyə qədər aparılan mübarizədə Azərbaycan, hər halda, mümkün olanın ən yüksəyini, ən artığını edib və etməyə də davam edir: "Əlbəttə, Azərbaycan dövlətinin müxtəlif dövlətlərə yardım etməsi məsələsində özünü reklama da yer verməməsi ayrıca qeyd edilməlidir. Yəni Azərbaycan ehtiyacı olan dövlətlərə yardım əlini uzadır, beynəlxalq qurumlara maliyyə dəstəyi verir, amma bu etdiklərini bütün dünyaya car çəkərək bildirmir. Sadəcə olaraq, bunu, bir növ, insanlıq borcu bilir. Ona görə də belə davranır" - deyə A.Həsrət vurğuladı.

***İradə SARIYEVA***

**Xarici siyasətdə ciddi fiaskoya uğrayan Ermənistan üçün diqqət mərkəzində yer alan əsas məqamlardan biri də İsraillə əməkdaşlığı gücləndirməkdir. İrəvanda hesab edilir ki, bununla Ermənistan həm də yəhudi lobbisinin və iş adamlarının dəstəyini əldə edə bilər.**



# İsrail mediasında Ermənistanın faşizm təəssübkeşliyinə sərt etirazlar başladı

***Elşən Həsənov:** "İstərdik ki, buna İsrail dövləti səviyyəsində də rəsmi reaksiya verilsin"*

Ancaq bir sıra amillər və xüsusilə də Ermənistanda meydana çıxan faşizm sevgisi tamam fərqli bir durum yaradır. İndi Ermənistanda tüğyan edən faşizmə rəğbət məsələsinə bu mənada İsraildə də xüsusi diqqət yetirilməsi təsadüfi sayıla bilməz. İsraildə çıxan nüfuzlu "Israel HaYom" qəzetində dərc olunmuş məqalədə də bu xüsusda maraqlı məqamlara toxunulur. Burada xatırlanır ki, İkinci Dünya müharibəsi zamanı yəhudi xalqı dəhşətli, dözülməz faciə olan Holokost soyqırımını görüb:"Vəhşiləşmiş, qəddar faşist rejimi tərəfindən yəhudi xalqının kütləvi şəkildə məhv edilməsi ürəkağrısı, iztirab, alçaldılma, təhqir olunma deməkdir". Qəzet bu xüsusda MDB-nin Aşqabad Zirvə görüşündə Azərbaycan Prezidenti İlham Əliyevin sözlərini sitat gətirir. Hesab edilir ki, İsrail cəmiyyətində məsələyə bu tərzdə yanaşma fonunda İrəvan, çətin ki, Təl-Əvivlə istədiyi münasibətləri qura bilsin. İsrail mediasının Ermənistana yönəlik bu demarşı gələcək üçün nə vəd edir?

Azərbaycan Sosialist Partiyasının sədri Elşən Həsənov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, faşizm mövzusu İsrail dövləti və xalqı üçün xüsusi əhəmiyyət kəsb edən mövzudur:"Tarixdən bilirik ki, faşizmin zülmündən daha çox əziyyət çəkən xalq məhz yəhudilər olub. Bu baxımdan da İsrailin Ermənistana reaksiyası daha sərt olmalıdır. Ermənistan açıq-açığına faşistləri dəstəkləyən bir siyasət yürüdür. Azərbaycan Prezidenti səviyyəsində bu mövzunun ictimailəşdirilməsi daha böyük rezonansa səbəb oldu. Bunun fonunda, təəssüf ki, biz İsraildən Ermənistanı qınayan sərt bəyanata rast gəlmədik. Çünki Ermənistan xarici siyasət kursunda yeni xətt seçib. Azərbaycanın yaxın dostları ilə yaxınlaşmaq xətti çərçivəsində, hətta İsraildə səfirlik açmaq niyyətini də gündəmə gətirdi. Hətta İsraildə keçirilən Holokostla bağlı tədbirdə Ermənistan Prezidenti yuxarı başa keçirilmişdi. Həmin vaxt bu addım Azərbaycanda ciddi narazılığa səbəb olmuşdu. Njdenin faşistlərlə əlbir olması faktlarla sübuta yetir və Ermənistan hakimiyyəti ona heykəl qoyubsa, bu, İsrail üçün yetərli olmalıdır ki, İrəvana yerini göstərsin. Dünyada faşizmi Ermənistan qədər əbədiləşdirən ikinci ölkə yoxdursa, niyə onun adı İsrail tərəfdən çəkilmirdi? Deməli, kimlərsə bu məsələdə ikili standarta yol verməyə çalışırdı. Artıq İsrail mediası bütün detalları öz adı ilə çağırmağa başlayıbsa, deməli irəliləyiş var. Hər dövlətin mətbuatı onun güzgüsüdür. Biz İsrailin bu "güzgü"sündə Ermənistanı necə varsa, elə də görməyə başlamışıqsa, deməli, həqiqət öz yerini tapır. İstərdik ki, buna İsrail dövləti səviyyəsində də rəsmi reaksiya verilsin".

***Məhəmmədəli QƏRİBLİ***

**"Hər şey müqayisədə ölçülür. Əhalisinin sayı Azərbaycanla eyni olan inkişaf etmiş ölkələrdə vəziyyət necədir, Azərbaycanda vəziyyət necədir? O ölkələrin bəzilərində bu günə qədər 10 minə yaxın insan vəfat etdi. Azərbaycanda vəfat edənlərin sayı kifayət qədər azdır".**

# Koronavirusla mübarizədə Azərbaycanın nəticələri, əhalisi eyni olan dövlətlərin nəticələri - fərq Prezidentin dediyi qədərdir...

## *Seyid Camal Əzimbəyli: "Azərbaycanda görülən qabaqlayıcı və digər tədbirlər çoxsaylı insanın xəstəlik qurbanı olmasının qarşısını aldı"*




Bunu Prezident İlham Əliyev yeni istifadəyə verilən DOST mərkəzi ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına müsahibəsində deyib.

Ölkə başçısının sözlərinə görə, koronavirusla bağlı işlər əvvəldən Azərbaycanda çox düzgün istiqamətdə aparıldı: "Bunu həm Azərbaycan xalqı görür və təqdir edir, həm də beynəlxalq təşkilatlar. Bu günə qədər mən vətəndaşlardan gündə yüzlərlə məktub alıram. Yeni pandemiyanın ilk günlərindən minlərlə məktub almışam və bütün bu məktublar təşəkkür xarakterli məktublardır. Çünki doğrudan da qabaqlayıcı tədbirlərin görülməsi bizi böyük bəladan xilas etdi. Eyni zamanda, qabaqlayıcı, məhdudlaşdırıcı tədbirlər imkan verdi ki, biz pandeminyanın geniş vüsət almasının qarşısını alaq və buna nail olduq. Təsadüfi deyil ki, Ümumdünya Səhiyyə Təşkilatı bizim bu sahədə gördüyümüz işləri yüksək qiymətləndirir və Azərbaycanı nümunəvi ölkə adlandırır. Bu, bizim gördüyümüz işlərə verilən böyük qiymətdir. Mən bilmirəm başqa bir ölkəyə belə bir ad verilib, yoxsa yox. Bu, doğrudan da görülmüş işlərin məntiqi nəticəsidir".

Həqiqətən də bir sıra inkişaf etmiş ölkələrin əhalisinin sayı Azərbaycanla eynidir, amma həmin ölkələrdə virusdan ölənlərin sayı dəfələrlə çoxdur. Məsələn, Belçika əhalisinin sayı Azərbaycan əhalisinin sayı qədərdir. Bu ölkədə koronavirusdan ölənlərin sayı 9 min nəfəri ötüb. Ölkə ərazisində 55 min nəfərdə koronavirus aşkarlanıb. Portuqaliyada qeydə alınan yoluxma hallarının sayı 30 minə yüksəlib. Pandemiya qurbanlarının sayı 1190-a çatıb. Bununla belə, İsveçdə indiyədək 26 min nəfərə koronavirus diaqnozu qoyulub. Onlardan 3 256 nəfər dünyasını dəyişib. Çexiyada koronavirusa yoluxanların sayı 8 475 nəfərdir. Bu ölkədə pandemiya zamanı ölənlərin ümumi sayı 298 nəfərə çatıb. Azərbaycanda isə indiyədək 3518 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 2198 nəfər müalicə olunaraq sağalıb, 41 nəfər vəfat edib, 1279 nəfərin xüsusi rejimli xəstəxanalarda müalicəsi davam etdirilir.

*"...əhalisinin sayı ölkəmizlə eyni olan bir sıra dövlətlərdə virusdan ölənlərin..."*

Göründüyü kimi, Azərbaycanda koronavirusa həm yoluxanların, həm də bundan ölənlərin sayı sözügedən ölkələrlə müqayisədə dəfələrlə azdır.

Məsələyə münasibət bildirən şərqşünas Seyid Camal Əzimbəylinin sözlərinə görə, Azərbaycanda virusdan ölənlərin sayının bir sıra ölkələrlə müqayisədə qat-qat az olması görülən kompleks işlərin sayəsində mümkün oldu: "Məsələ ondadır ki, virus təhlükəsi ilə bağlı bir sıra qabaqlayıcı tədbirlər görüldü. Ölkəyə giriş-çıxış məhdudlaşdırıldı. O cümlədən, ölkə daxilində ciddi karantin rejimi tətbiq edildi. Çünki koronavirus təhlükəsinin bütün dünyada sürətlə genişlənməsi Azərbaycanın da önləyici addımlar atmasını zərurətə çevirdi. Pandemiyanın zərərlərini minimuma endirmək üçün dövlət tərəfindən əhəmiyyətli və sistemli tədbirlər görüldü. Prezident İlham Əliyev əhalini koronavirus təhlükəsindən qorumaq məqsədilə ilk gündən çevik qərarlar qəbul edir. Məqsəd sosial izolyasiya tədbirləri çərçivəsində virusun daha da geniş yayılmasının qarşısını almaqdır. Təsadüfi deyil ki, ölkəmiz yalnız regionda deyil, bütün dünyada koronavirus təhlükəsinə adekvat reaksiya verən, zamanında qabaqlayıcı tədbirlər görən azsaylı dövlətlərdən biridir. Bütün bunların nəticəsidir ki, əhalisinin sayı Azərbaycanla eyni olan bir sıra ölkələrdə virusdan ölənlərin sayı minlərlə olduğu halda, bizdə bu rəqəm 41 nəfərdir. Hesab edirəm ki, Azərbaycanda görülən qabaqlayıcı və digər tədbirlər çoxsaylı insanın xəstəlik qurbanı olmasının qarşısını aldı".

***Vidadi ORDAHALLI***

**Son günlər hakim Yeni Azərbaycan Partiyasında (YAP) da islahatların aparılmasının zəruriliyi ilə bağlı fikirlər səslənir. Belə fikirlər daha çox hakim partiyanın Siyasi Şurasında təmsil olunan şəxslərin dili ilə ifadə olunur.**

# YAP rəhbərliyində və idarəçilikdə islahatlar mövzusu gündəmdə - içdən və çöldən reaksiyalar...

## *Elman Nəsirov: "Keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğumuz üçün hakim YAP-da islahatların dərinləşməsi kursu labüddür"*




YAP Siyasi Şurasının üzvü, sabiq təhsil naziri, Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Riyaziyyat və Mexanika İnstitutunun direktoru Misir Mərdanov son müsahibələrindən birində 5 rayonun icra başçısının həbsindən danışıb və təmsilçisi olduğu hakim partiya ilə bağlı ilginc fikirlər səsləndirib:"Çox təəssüf ki, bəzən təsadüfi adamlar yüksək vəzifələrə və YAP rəhbərliyinə qədər gəlib çıxa bilib. Belə halların olması təəssüfedicidir".

Partiyanın Siyasi Şurasının digər üzvü, sabiq deputat Musa Musayev də bənzər fikirlər səsləndirib:"Mənim 33 illik siyasi təcrübəm və müşahidələrim onu deməyə əsas verir ki, ölkəmizdə xoşa gəlməyən halların baş verməsinin əsas səbəbkarları keçmiş kommunistlərdən, komsomoldan və başqa partiyalardan hakimiyyətə transfer olunmuş kadrlardır".

Sabiq deputat bildirib ki, islahatlar dalğası Prezident Adminstrasiyasında, YAP-da və digər qurumlarda davamlı olmalıdır: "Hər bir cinayətkar və rüşvətxor öz cəzasını almalıdır, bunu bütün Azərbaycan xalqı tələb edir. Azərbaycan xalqının 90 faizi cənab Prezidentin arxasındadır, lazım gələrsə, onun və dövlətimizin müstəqilliyi yolunda şəhid olmağa hazırıq".

Hakim partiyada islahatların zəruriliyi ilə bağlı səslənən fikirlərə hazırda hakim partiyanın rəhbər strukturlarında təmsil olunan şəxslərin münasibəti maraqlıdır. YAP-ın Beynəlxalq əlaqələr komisiyasının katibi, millət vəkili Elman Nəsirov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Azərbaycanda Prezidentin təşəbbüsü və siyasi iradəsi ilə həyata keçirilən islahatlar keyfiyyətcə yeni mərhələyə qədəm qoyub: "Hakim partiya hakimiyyətə gələndən sonra bu islahatlar kursu hər zaman olub. Hətta mərhum prezident Heydər Əliyevin zamanında da bu kurs həyata keçirilib. 2018-ci ildəki prezident seçkilərindən sonra Parlamentdəki andiçmə mərasimində ölkə başçısı vurğuladı ki, islahatlar kursu daha da dərinləşdiriləcək və keyfiyyətcə yeni mərhələyə keçəcək. Prezident həmin çıxışında islahatların ünvanını da göstərmişdi. Biz görürük ki, bütün sahələrdə yeniləşmə, müasirləşmə və başqa addımlar həyata keçirilir. Bu özünü icra, məhkəmə sistemlərində, hətta parlamentdə də göstərdi. Əgər bu islahatlar irimiqyaslı, ardıcıl və sistemlidirsə, onda YAP da prosesdən kənarda qalmır. Qeyd edim ki, YAP-ın özündə də hər zaman dəyişikliklər olub. Partiyada gənclər daha çox irəli çəkilir. Ancaq keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğumuz üçün hakim YAP-da islahatların dərinləşməsi kursu labüddür. Prezident Baş nazirin sabiq müavini Əli Həsənovu vəzifəsindən azad edilməsi xahişi ilə bağlı qəbul edərkən, ona YAP sıralarında fəaliyyətini davam etdirməyi tövsiyə etdi və bildirdi ki, hakim partiyada da islahatların həyata keçirilməsi zəruridir. Demək istəyirəm ki, partiyada islahatlar aparılması həm də Prezidentin siyasi iradəsinin göstəricisi sayıla bilər. İstisna etmirəm ki, YAP-da islahatlar dərinləşəcək. Heç bir sahə islahatdan kənarda qalmayacaq".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycanda şəhid ailələrinə mənzil, avtomobil - Ermənistanda, sadəcə, siyasi oyun... "Bakılı qaçqınlara" dəstəyin arxasında məkr...

**"Ermənistanda müharibədə ölənlər olubdur. Onların ailələrinə mənzil, avtomobil verilir? Yox. Orada pullar faşistlərin abidələrinin ucaldılmasına xərclənir". Bunu Prezident İlham Əliyev yeni istifadəyə verilən DOST mərkəzi ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına müsahibəsində deyib.**

*"Bu kimi məsələlərdən siyasi məqsədlər üçün istifadə edirlər"*

***İbrahim Rüstəmli:*** *"Ermənistanda müharibədə ölənlərin ailələrinə və yaralananlara mənzil yox, quru vəd verilir"*



Ölkə başçısının sözlərinə görə, Azərbaycanda şəhid ailələrinin sosial məsələlərinin həlli, onların mənzil-məişət şəraitinin daha da yaxşılaşdırılması daim diqqət mərkəzində olan məsələdir: "Bu günə qədər 7600 şəhid ailəsi dövlət tərəfindən evlərlə, mənzillərlə təmin edilibdir. Bu il şəhid ailələrinə verilən mənzillərin, evlərin sayı rekord həddə çatıb -1500 şəhid ailəsinə evlər, mənzillər veriləcək və beləliklə, növbədə duran şəhid ailələrinin sayı 2 mindən az olacaqdır. Ümid edirəm ki, maksimum iki il ərzində bütün şəhid ailələri dövlət tərəfindən evlərlə təmin ediləcəkdir.

İndi bir daha demək istəyirəm ki, heç kimlə müqayisə aparmaq istəmirəm, amma baxın, Ermənistanda müharibədə ölənlər olubdur. Onların ailələrinə mənzil, avtomobil verilir? Yox. Orada pullar faşistlərin abidələrinin ucaldılmasına xərclənir. Amma biz bütün bu işləri görürük və görməliyik. Bu, bizim mənəvi borcumuzdur".

Həqiqətən də Ermənistanda müharibədə ölənlərin ailələrinə nə mənzil, nə də avtomobil verilir. 2016-cı ildə Ermənistan parlamenti belə bir qanun qəbul etdi ki, guya Qarabağda ölənlərin ailələrinə və yaralananlara 30-10 min dollar civarında kompensasiya veriləcək. Ancaq sözügedən qanun kağız üzərində qaldı. Bununla bağı Ermənistan hakimiyyəti sonrakı dövrdə qərarlılıq göstərmədi. Ən başlıcası, Ermənistanın bununla bağlı iqtisadi imkanları yoxdur. Ermənistan, adətən, bu kimi məsələlərdən siyasi məqsədlər üçün isifadə edir. Məsələn, bu günlərdə məlumat yaydılar ki, guya Azərbaycandan gələn "qaçqınlara" 800 milyon dollar dəyərində mənzil sertifikatı verilib. Sözügedən tədbirlər çərçivəsində 112 ailə evlə təmin olunacaq və s. Əslində, bütün bunların heç bir əsası yoxdur. Sadəcə, bununla məkrli niyyətlərinə uyğun görüntü yaradırlar ki, onlarda qaçqın problemi var və bunun günahkarı Azərbaycandır.

Məsələyə münasibət bildirən ehtiyatda olan polkovnik-leytenant, hərbi ekspert İbrahim Rüstəmlinin sözlərinə görə, Ermənistanda müharibədə ölənlərin ailələrinə və yaralananlara mənzil yox, quru vəd verilir: "Sözügedən məsələ ilə bağlı Ermənistanda hər hansı praktiki işlərin görülməsindən söhbət gedə bilməz. Vaxtilə Qarabağda Azərbaycana qarşı döyüşən ermənilərin hazırki sosial durumu acınacaqlı vəziyyətdədir. Ermənilər, sadəcə, bu kimi məsələlərlə bağlı informasiya müharibəsi aparırlar. Yalandan elə görüntü yaradırlar ki, guya müharibə iştirakçıları üçün nələrsə edilir, amma ortada heç nə yoxdur. Onların fəaliyyəti sırf təbliğata yönəlib. Bu kimi məsələlərdən siyasi məqsədlər üçün istifadə edirlər. Ermənistandan fərqli olaraq, Azərbaycanda müharibə veteranlarına və əlillərinə çox böyük qayğı göstərilir. Onların mənzil şəraiti yaxşılaşdırılır və digər sosialyönlü addımlar atılır. Prezident tamamilə doğru olaraq qeyd etdi ki, Ermənistanda pullar faşistlərin abidələrinin ucaldılmasına sərf edilir. Bir məqamı da qeyd edim ki, bir neçə dəfə Ermənistanda hərbçilər üçün ianə toplanıb. Ancaq bununla bağlı yığılan vəsaitlər mənimsənilib. Bütün bunların nəticəsidir ki, ölkədə hərbi mükəlləfiyyəti olan şəxslər zorla orduya aparılır".

***Vidadi ORDAHALLI***

# Paşinyanın Ermənistanda yenidən virus dalğası şüvəni - həqiqətdirsə, mayın 21-də Xankəndidə qondarma inauqurasiya nə deməkdir...

**Ermənistanın baş naziri Nikol Paşinyan bildirib ki, Ermənistan indi böyük bir problemlə üzləşir, çünki ictimaiyyət koronavirus təhlükəsini kifayət qədər ciddi qəbul etmir. Erməni KİV-nin məlumatına görə, bu barədə erməni baş nazr öz Facebook səhifəsində canlı yayımda etiraf edib:"Bu vəziyyəti iki, beş, on qat daha ciddi qəbul etməyin vaxtı gəlib".**



Onun sözlərinə görə, ən yaxın zamanda koronavirus xəstələrinin sayı dəfələrlə çoxalacaq və hətta reanimasiyada yer belə tapılmayacaq:"Əgər yoluxma tempini yavaşlatmasaq, mayın 29-dək Ermənistanda 10 min koronavirusa yoluxma, 12 iyunda isə 20 min xəstəlik qeydə alınacaq. Bu, həmçinin, ölüm hallarının artacağını da göstərir. Bununla yanaşı, reanimasiyada sadəcə yer belə qalmayacaq".

Nikol Paşinyan etiraf edib ki, bu dinamika dəyişməzsə, sutkada bəlkə də onlarla, hətta yüzlərlə ölüm halları qeydə alınacaq və hökumət yenidən ən sərt məhdudiyyətlərə əl atmalı olacaq. Əslində Ermənistanın baş naziri koronavirusla bağlı qaldırdığı şüvəndə səmimi deyil. Çünki biz görürük ki, o bunun fonunda tammailə fərqli addımlar atır. Dünyanın koronavirusla ən aktiv mübarizə apardığı bir zamanda bu adam qondarma qurumda seçkilər keçirdi. Gəlin, Paşinyanın ikinci planına nəzər salaq. Bu adam Azərbaycanın işğal altındakı Qarabağ torpaqlarında yaradılmış qondarma rejimin yeni "prezidenti" Araik Arutunyana mayın 21-də "inauqurasiya" mərasimi keçirməyə hazırlaşır.

Ermənistan KİV-i bildirir ki, mərasim Azərbaycanın mədəniyyət paytaxtı sayılan Şuşada keçiriləcək. 1992-ci ilin mayında Şuşanı zəbt edən erməni birləşmələri mədəniyyət evinə də od vurmuşdular. Sonradan Kanadadan olan diaspor nümayəndələrinin maliyyəsi hesabına mədəniyyət evi bərpa olunub. Restavrasiya işləri zamanı binanın üzərində və daxilindəki Azərbaycan ornamentləri məhv edilib. Bəşəriyyətin sağlamlığı, mədəniyyəti, təhlükəsizliyi üçün təhlükə mənbəyi olan erməni kriminal rejimi yenə dünyanı aldatmağa çalışır. Əslində Paşinyanın nə istədiyi məlumdur. Onu əhalinin virusa yoluxması ciddi narahat etmir. Etsə, Ermənistanın kriminal hakim elitasının da iştirak edəcəyi inauqurasiya kimi kütləvi tədbiri keçirməz. Bütün dünyada görüşlər, toplantılar videoformatda keçirildiyi halda bunlar kütləvi tədbir keçirməyə hazırlaşırsa, deməli, Paşinyan dediklərində səmimi deyil. Başlıca məqsəd vəziyyəti dramatikləşdirib, beynəlxalq qurumlardan və ölkələrdən yardım adı ilə pul qoparmağa hesablanıb. Əslində Paşinyanın bu ərköyün davranışlarında dünya birliyi də günahkardı. Əgər ona pandemiya dönəmində keçirdiyi qondarma seçkiyə görə lazımi səviyyədə təpki olsaydı, bu cür şoularını davam etdirməzdi. Bu baxımdan da, Paşinyan korona şüvənində qətiyyən səmimi deyil.

***Məhəmmədəli QƏRİBLİ***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




**Ermənistanın əsassız ərazi iddiaları nəticəsində yaranan Dağlıq Qarabağ münaqişəsinin təəssüf ki, həllinə nail olmaq mümkün olmayıb. Prosesin danışıqlar və sülh yolu ilə həll olunması üçün Azərbaycan dövləti dövlət maraqlarımızın təmin edilməsi və beynəlxalq hüququn prinsiplərini əsas götürərək bütün mümkün addımları atır.**

## I yazı

# Dağlıq Qarabağı Azərbaycan ərazisi kimi təsdiqləyən beynəlxalq sənədlər...

Lakin təcavüzkar Ermənistan danışıqlar prosesini pozmaq, Azərbaycan torpaqlarını işğalda saxlamaq üçün məsələnin həllindən qaçır. Bununla da Dağlıq Qarabağı Azərbaycan ərazisi olaraq təsdiqləyən beynəlxalq sənədlərin tələblərini pozur.

Məlum olduğu kimi, Ermənistan Respublikasının birbaşa iştirakı ilə və onun hərbi qüvvələri hesabına Azərbaycanın Dağlıq Qarabağla birlikdə ətraf 7 rayonu da işğal edildi. Azərbaycanın ərazi bütövlüyü uğrunda savaşan hərbçilərdən başqa, minlərlə azərbaycanlı mülki əhali erməni quldur dəstələri tərəfindən soyqırıma məruz qaldı.

Beynəlxalq hüquq tərəfindən Azərbaycanın ərazisi kimi tanınmış rayonların işğalından əlavə, bütün dünyanın gözü qarşısında Xocalı, Ağdaban, Qaradağlı və s. soyqırımları törədildi.

Qeyd edək ki, 1992-ci ildə erməni silahlı birləşmələri respublikamızın ərazilərinin işğalına istiqamətlənmiş hərbi əməliyyatların miqyasını kifayət qədər genişləndirmişlər. Lakin heç bir beynəlxalq təşkilat hamının gözü qarşısında baş verməkdə olan və beynəlxalq hüquq normalarını kobud şəkildə tapdalayan bu işğalçılıq əməllərinə obyektiv qiymət verməди. Doğrudur, müxtəlif dövrlərdə BMT-nin, ATƏT-in, Avropa Birliyinin bu barədə müəyyən qətnamələri, bəyanatları meydana çıxdı, bununla belə, həmin sənədlər münaqişənin həqiqi səbəblərini dəqiq şəkildə qiymətləndirmir, təcavüzkarla təcavüzə məruz qalan tərəf arasında heç bir fərq qoymurdu.

1991-ci ildə müstəqilliyini elan edən Azərbaycan Respublikası bu barədə bütün beynəlxalq təşkilatlara, o cümlədən, BMT-yə və dünya dövlətlərinə müraciət etdi. 1992-ci ilin martında Azərbaycan BMT-yə üzv qəbul edildi. Bundan sonra Azərbaycan BMT-yə müraciət edərək Ermənistanın təcavüzkar siyasətinə münasibət bildirməyi və bu ölkənin işğalçılıq əməllərinin qarşısını almağı xahiş etdi. BMT-nin nümayəndə heyəti bu müraciətə əsaslanaraq regiona səfər etdi və bu barədə BMT Baş katibinə müvafiq məlumatlar verdi. BMT-nin Baş katibi isə münaqişənin həllində ATƏM-in (Avropa Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi -1995-ci ilin yanvarından ATƏT - Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı) səylərini dəstəklədiyini və bu təşkilata müvafiq nəticələr əldə etmək üçün kömək göstərməyə hazır olduğunu bildirdi. Bu, artıq beynəlxalq ictimaiyyətin məsələyə soyuq münasibətinin ilk simptomları idi.

Ekspertlər qeyd edirlər ki, 1992-ci ildə Şuşanın işğalı Azərbaycanı yenidən BMT-yə müraciət etmək məcburiyyətində qoydu. May ayının 12-də BMT Təhlükəsizlik Şurası Dağlıq Qarabağ problemini müzakirə edərək bəyanat verməklə kifayətləndi. Bəyanatda Dağlıq Qarabağda vəziyyətin pisləşməsindən narahatlıq ifadə olunur və məcburi köçkünlərə təcili yardım göstərilməsinin zəruriliyi bildirilirdi.

Bildiyimiz kimi, Heydər Əliyev 15 iyun 1993-cü ildə hakimiyyətə qayıdışından sonra bütün fəaliyyəti boyu qondarma Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə, beynəlxalq hüquq normalarına uyğun ədalətli həllinə çalışıb. Lakin heç kəsdən gizli deyil ki, dünyada ikili standartlar mövcuddur.

Xatırladaq ki, BMT-nin Təhlükəsizlik Şurası Dağlıq Qarabağla bağlı 30 aprel 1993-cü il tarixdə 822 №-li, 29 iyul 1993-cü ildə 853 №-li, 14 oktyabr 1993-cü ildə 874 №-li və 11 noyabr 1993-cü ildə 884 №-li qətnamələr qəbul edib. Həmin sənədlərdə BMT Təhlükəsizlik Şurası, əslində, Dağlıq Qarabağın və ona bitişik bir sıra rayonların Ermənistan tərəfindən işğalını tanıyıb. Belə ki, BMT-nin Təhlükəsizlik Şurasının 30 aprel 1993-cü il tarixli, 822 №-li qətnaməsinin 1-ci bəndində göstərilir ki, atəşin biryolluq dayandırılması məqsədilə bütün hərbi əməliyyatların və düşmənçilik hərəkətlərinin dərhal dayandırılmasını, eləcə də bütün işğalçı qüvvələrin Kəlbəcər rayonundan və Azərbaycanın son vaxtlar işğal edilmiş başqa rayonlarından dərhal çıxarılmasını tələb edir.

BMT Təhlükəsizlik Şurasının 29 iyul 1993-cü il tarixli, 853 №-li qətnaməsinin 3-cü bəndində göstərilir ki, bütün hərbi əməliyyatların təxirə salınmadan dayandırılmasını və münaqişədə iştirak edən işğal qüvvələrinin Azərbaycan Respublikasının Ağdam rayonundan və işğal olunmuş bütün digər rayonlardan dərhal, tamamilə və qeyd-şərtsiz çıxarılmasını tələb edir. Həmin qətnamənin 9-cu bəndinə əsasən, Şura Ermənistan Respublikası hökumətini Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsi ermənilərinin 822 №-li qətnamənin müddəalarına əməl etməsi və ATƏM-in Minsk Qrupunun təkliflərini həmin tərəfin qəbul etməsi məqsədilə öz təsirini göstərməyi davam etdirməyə təkidlə çağırır.

BMT Təhlükəsizlik Şurası 14 oktyabr 1993-cü il tarixli, 874 №-li qətnaməsinin 3-cü bəndinə əsasən, 822 və 853 №-li qətnamələrinin həyata keçirilməsinə dair təxirəsalınmaz tədbirlərin yeniləşdirilməsini alqışlayır. BMT kimi mötəbər beynəlxalq təşkilatın bu qətnamələri bu günə kimi icra edilməyib.

Nəhayət, BMT Təhlükəsizlik Şurasının 11 noyabr 1993-cü il tarixli, 884 №-li qətnaməsinin 4-cü bəndində Təhlükəsizlik Şurasının 822 (1993), 853 (1993), (S/26522, əlavə) saylı qətnamələrinin yerinə yetirilməsini, hərbi əməliyyatların və düşmənçilik aktlarının dərhal və ləngidilmədən dayandırılmasını, Azərbaycan Respublikasının işğal olunmuş rayonlarından qəsbkar qüvvələrin çıxarılmasını maraqlı tərəflərdən tələb edir.

Ekspertlər qeyd edirlər ki, BMT-nin Təhlükəsizlik Şurası kimi mötəbər qurumun qətnamələri indiyə kimi icra edilmirsə, onda bu qərarlar kimin üçün və nəyə görə qəbul edilir?! Bütün bunlar dünyada hələ də beynəlxalq səviyyədə müxtəlif məsələlərin, o cümlədən, ərazi münaqişələrinin həllində ikili standartların mövcud olmasını bir daha təsdiq edir.

BMT-nin San-Fransisko şəhərində 26 iyun 1945-ci il tarixdə qəbul edilmiş Nizamnaməsinin 39-41-ci maddələrinə əsasən, Təhlükəsizlik Şurası iqtisadi münasibətlərin və dəmir yolu, dəniz, hava, poçt, teleqraf, radio və digər rabitə vasitələrinin tamamilə və ya qismən dayandırılması və diplomatik münasibətlərin kəsilməsi kimi tədbirlərin tətbiq edilməsi barədə qərar qəbul edə bilər. Lakin BMT Təhlükəsizlik Şurasının həmin qətnamələri bu günə kimi Ermənistan tərəfindən yerinə yetirilmədiyi halda, bu ölkəyə qarşı heç bir sanksiya tətbiq edilməyib.

Bilirik ki, Azərbaycan tərəfi Qarabağ həqiqətlərini bütün dünya ictimaiyyətinə olduğu kimi çatdırmaq üçün var qüvvəsi ilə çalışır.

Onu da vurğulayaq ki, mərhum Heydər Əliyev həmin dövrdə istər dövlət başçıları, istərsə də xarici ölkələrdə olan Azərbaycan diasporunun nümayəndələri, iş adamları, qeyri-hökumət təşkilatlarının nümayəndələri ilə görüşlərində Dağlıq Qarabağın Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olması fikrini əsaslandırıb və buna da nail olub.

Prezident İlham Əliyevin bu siyasəti uğurla davam etdirməsi nəticəsində BMT Baş Məclisinin 6 sentyabr 2006-cı il tarixli "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnaməsində Azərbaycanın işğal edilmiş ərazilərində baş verən yanğınlardan və onun vurduğu böyük ekoloji ziyandan ciddi narahatlığı vurğulanıb. Dağlıq Qarabağ münaqişəsinin BMT Baş Məclisinin 61-ci sessiyasında müzakirəyə çıxarılması Ermənistanda siyasi atmosferi gərginləşdirməkdədir. Rəsmi İrəvanın məsələyə soyuqqanlı yanaşmağa çalışması erməni siyasətçilərinə münaqişənin BMT səviyyəsinə çıxarılmasının Ermənistan üçün nə dərəcədə təhlükəli olduğunu deməl추rinə maneçilik törətmir. Bundan başqa, Dağlıq Qarabağ münaqişəsinin həlli prosesində Azərbaycanın mövqelərinin getdikcə möhkəmlənməsi erməni siyasətçilərini son hadisədən hakimiyyət uğrunda mübarizədə yararlanmağa vadar edir.

Ermənistan artıq iqtisadi müstəvidə uduzduğu kimi, siyasi müstəvidə də uduzduğuna başa düşür. Bu ölkə Bakı-Tiflis-Ceyhan, Bakı-Tiflis-Ərzurum kimi beynəlxalq layihələrdən kənarda qalıb, Qars-Axalkalaki-Tiflis-Bakı dəmir yolunun çəkilməsi ilə beynəlxalq aləmdən təcrid olunub. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsinin BMT-nin Baş Məclisinin sessiyasına çıxarılması, BMT, AŞ, AB, İKT kimi beynəlxalq təşkilatların Azərbaycanın ərazi bütövlüyünü tanıması isə Ermənistanın siyasi-diplomatik fiaskosundan xəbər verir.

Bildirək ki, Prezident İlham Əliyev çıxışlarında dəfələrlə bəyan edib ki, Dağlıq Qarabağ münaqişəsi yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilə bilər.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

**Bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə müsahibə və çıxışlarında Ermənistanın "qəhrəmanlaşdırdığı", əslində isə nasizmə xidmət etmiş və Hitlerin əlaltısı olmuş, faşist Qaragen Njdenin əməllərini ifşa etdikdən sonra ermənilərin rahatlığı əməlli-başlı pozulub. Bu gün erməni mediası II Dünya Müharibəsi illərində yaradılan Azərbaycan Komitəsi və legionlarının fəaliyyətini qaralamaqla məşğuldur.**



# Düdənginski hara, yəhudiləri qətl edən 20 minlik erməni legionunun başçısı Njde hara...

***Faiq Ələkbərli:** "Ermənilər də çarəsizlikdən gah M.Ə.Rəsulzadəyə, gah da Düdənginskiyə böhtan atmağa cəhdlər edirlər"*

Erməni mediasında Əbdürrəhman bəy Düdənginskinin (Fətəlibəyli) fəaliyyəti ilə bağlı qarayaxmalara rast gəlinir. Ermənilər hətta onu Njde ilə eyniləşdirməyə də cəhdlər edirlər.

Məlum olduğu kimi, faşist Njde və onun rəhbərlik etdiyi erməni legionu Hitlerin tapşırığını icra edib, minlərlə yəhudinin, eləcə də sovet əsgərlərinin qətlini həyata keçirib. Ermənilər açıq çəkildə olmasa da, dolayı formada Düdənginskini də bu "əməlləri törətmək"də ittiham edirlər.

Əbdürrəhman bəy Düdənginskinin İkinci Dünya Müharibəsi illərində Azərbaycan legionundakı fəaliyyəti nədən ibarət olub?

"AzərTAC"da Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Milli Azərbaycan Tarixi Muzeyinin elmi işçisi Şəfa Mövsümovun mühacir Azərbaycan Komitəsi və legionlarının Azərbaycan tarixşünaslığında tədqiqinə dair qeydləri yer alıb. Bu qeydlərdə bildirilir: "...Sovet ordusunun zabiti olmuş Əbdürrəhman bəy Fətəlibəylinin (Düdənginski) hitlerçilərlə əməkdaşlıq etməsi və Mühacir Azərbaycan Komitəsi yaradaraq, Azərbaycanın istiqlaliyyəti üçün mübarizəsi haqqında fikirlərə də müasir tarixşünaslığımızda rast gəlinir. Qeyd olunur ki, Baltikyanı cəbhədə hitlerçilərə əsir düşən Ə.Fətəlibəyli azərbaycanlı hərbi əsirlərdən ibarət dəstələr yaradılması üçün 1941-ci ilin avqustunda Hitlerə müraciət edib. Həmin ilin payızında M.Ə.Rəsulzadə Almaniyanın Şərq Nazirliyi tərəfindən Berlinə dəvət edilib. Bununla bağlı aparılan danışıqlar 12 maddədən ibarət xüsusi memorandumda əks olunub".

AMEA-nın Fəlsəfə İnstitutunun aparıcı elmi işçisi, tarix üzrə fəlsəfə doktoru, tanınmış tədqiqatçı-alim Faiq Ələkbərli "Bakı-Xəbər"ə bildirdi ki, ermənilərin Düdənginski haqqında yazdıqları birmənalı olaraq həqiqəti əks etdirmir, o, Njdedən fərqli olaraq, yəhudilərin və sovet əsgərlərinin qətli prosesində iştirak etməyib, onun yeganə amalı müstəqil Azərbaycan dövlətinin bərpasına nail olmaq olub.

"Əvvəla Paşinyan başda olmaqla, ermənilərin Azərbaycan Xalq Cümhuriyyətinin qurucusu, həmin dövlətimizin başçısı Məhəmməd Əmin Rəsulzadə, daha sonra isə Azərbaycan Milli Birlik Məclisinin rəhbəri, eyni zamanda, Azərbaycan legionunun başçısı, "Azadlıq" radiosunun Azərbaycan redaksiyasının baş redaktoru Əbdürrəhman bəy Düdənginski haqqında ittihamlarla çıxış etməsi təsadüfi deyil. Məlumdur ki, həm Azərbaycan Prezidenti, həm mediamız, həm də elm adamlarımız tərəfindən Paşinyanın çoxüzlü siyasət yeritdiyi, Ermənistanın həm faşizmi dəstəklədiyi, faşist əlaltılarına heykəllər qoyduğu, eyni zamanda da Sovet Rusiyasını müdafiə edən bəyanatlar səsləndirməsi bütün dünya qarşısında işfa edilib, bununla da onların həqiqi simaları üzə çıxıb. Ermənistanın bu münasibəti də dünya tərəfindən birmənalı qarşılanmır. Ermənilər də çarəsizlikdən gah M.Ə.Rəsulzadəyə, gah da Düdənginskiyə böhtan atmağa cəhdlər edirlər. Bəli, həqiqətən də Əbdürrəhman bəy Fətəlibəyli - Düdənginski İkinci Dünya Müharibəsi dövründə Almaniyada yaradılmış Azərbaycan Milli Birlik Məclisinin rəhbəri olub. Əslində, almanlar ilk dövrlərdə daha çox Azərbaycan Cümhuriyyətinin qurucusu, lideri M.Ə.Rəsulzadə ilə bəzi danışıqlar apardı. Lakin Rəsulzadə sonralar Düdənginskinin xatirəsi haqqında yazdığı yazıda da göstərirdi ki, o, almanlarla əsas məsələlərdə, xüsusən də Azərbaycanın müstəqilliyi məsələsində razılığa gələ bilməyib. Rəsulzadə İkinci Dünya Müharibəsindən əgər Almaniya qalib çıxacaqdısa, o zaman Azərbaycanın müstəqil bir dövlət kimi fəaliyyət göstərməsinin tərəfində idi. Ancaq Almaniya bununla razılaşmırdı. Rəsulzadənin Düdənginskinin dəfn mərasimində çıxışı zamanı dediyi sözlər çox dəyərlidir. O xatırladır ki, İkinci Dünya Müharibəsində almanların təklifi ilə Azərbaycan Milli Komitəsinin başçısı sifətində Almaniyada olmuşdu, orada Almaniya-Azərbaycan məsələləri müzakirə edilmişdi. Rəsulzadə Almaniyada olduğu dövrdə Düdənginski ona məktib yazaraq belə bir komitənin yaranmasından dolayı sevincini ifadə edib. "Mərhaba, çox möhtərəm Məhəmməd Əmin! Əziz yurdumuz Azərbaycanın yorulmaz hürriyyət mücahidi olan Sizi cəbhədəki bütün əsgərlərimiz adına salamlayıram" - deyə Düdənginski Rəsulzadəyə yazırdı. Rəsulzadə bildirirdi ki, Azərbaycan Milli Komitəsi hitlerçi almanların məqsəd və məramlarını anladıqdan sonra onlardan uzaqlaşmışdı. Rəsulzadə bildirirdi ki, Azərbaycan Milli Komitəsi hitlerçi almanlara məqsəd və məramlarını anlada bilməyib. Çünki Hitler heç bir komitəni tanımadığını bəyan edib və "Rabitə heyətləri"nin qurulmasına göstəriş verib. Azərbaycan "Rabitə heyəti"nin başına isə Düdənginski gətirilmişdi. Rəsulzadə daha sonra deyir ki, iş bu hala gəlincə, mayor Fətəlibəyliyə uğur diləyərək milli ideyalara sadiq qalacağı müddətdə onu mənən müdafiə edəcəyini bəyan edib. Yəni Rəsulzadə görəndə ki, almanlar Azərbaycanın müstəqilliyini heç cür qəbul etmir, o, birmənalı şəkildə, almanlarla danışıqları bitirib və Almaniyanı tərk etmişdi. Ancaq Düdənginski isə hələ də almanlara müəyyən mənada inandığı üçün onlarla danışıqları davam etdirmişdi.

Rəsulzadə hesab edirdi ki, Fətəlibəyli Milli Qurultay çağıraraq Milli Birlik məclisini yaradarkən də milli ideyalara sadiq qalıb: "Mərhum hərarətli bir vətənsevər və atılqan bir mücahiddir. Bildiyimiz fəaliyyət sahəsinə hələ atılmadan, cəbhədə adı duyulmayan bir əsgər ikən, hadisələrin axarı ilə üzə çıxan hissiyyatı onun səmimi bir vətənsevər olduğunu göstərir". Bu fikrlərin yekunu olaraq Rəsulzadə sonda bildirir: "Qurtuluşu həyata keçiriləcək hürr və müstəqil vətəndə adları şan və şərəflə anılacaq qurbanlar arasında indi xatirəsini andığımız mərhum da olacaq". Yəni Düdənginski də. Biz hesab edirik ki, Rəsulzadənin Düdənginski haqqında dediyi dəyərli sözlər bu günümüz üçün də aktuallığını itirməyib, əksinə, vətən övladlarımızın yad edilməsi baxımından çox böyük əhəmiyyət kəsb edir. Yenə də deyirəm, Rəsulzadə, bütün hallarda, Düdənginskiyə sahib çıxmağımızı istəmişdi. Bəli, 1943-cü il noyabrın 6-11-də Milli Birliyin təşəbbüsü ilə Milli Azərbaycan Qurultayı keçirilmiş və həmin qurultayda Düdənginski məruzə ilə çıxış edib: "Biz çar valilərinə, bolşevik əsarətinə dözmədiyimz kimi, hər hansı bir millətin hakimiyyətinə də dözməyəcəyik. Azərbaycanı azərbaycanlılar idarə etmiş və yenə onlar idarə edəcək". Gördüyümüz kimi, o, bütün vəchlə Azərbaycanın müstəqil dövlət olmasını istəyirdi. Əlbəttə, Rəsulzadədən fərqli olaraq, Düdənginski bəzi məsələlərdə almanlara güzəştə getmişdi. Ancaq bütövlükdə Düdənginski Njdenin rolunu oynamamış, onun kimi faşistlərin buyruğuna baxıb kütləvi qırğınlarda iştirak etməmişdi. Onun bir türk övladı kimi məqsədi almanlara əsir düşmüş Azərbaycan türklərini qorumaq və onlardan ibarət hərbi güc yaradaraq sonradan Azərbaycanı Sovet Rusiyasının işğalından xilas etmək idi".

F.Ələkbərli qeyd etdi ki, Düdənginski məruzəsində öz məqsədini açıq şəkildə belə ifadə edib: "Milli Birliyin əsas məqsədi bolşevizmin məhv edilməsi və Azərbaycanın müstəqilliyidir. Azərbaycan müstəqillik əldə etdikdən sonra milli mədəniyyət və milli dil - türk dili bərpa olunacaq, Milli Akademiya yarıdılacaq və sinfi mübarizəyə son veriləcək. Yeni Azərbaycanda daxili münaqişələrə, sinfi müharibələrə yer ola bilməz. Biz yol verə bilmərik ki, Yeni Azərbaycanda köhnə hadisələrin hesabı aparılsın. Biz xalqımızın gücünü bu cür dağıdıcı işə sərf edə bilmərik. Xalqın bütün enerjisi yaradıcı, mədəni işə istiqamətləndiriləcək. Tam sərbəstlik yaratmaq və işləmək imkanı bolşeviklərin dövründə kim olmasına baxmayaraq, hər bir azərbaycanlıya veriləcək. Yeni Azərbaycanda bir-birilə mücadilə aparan siniflər ola bilməz. Vahid zəhmətkeş Azərbaycan xalqı olacaq. Biz Azərbaycanda yaşayan digər millətlərin zəhmətkeşlərinə qonaqpərvər münasibət bəsləyəcəyik, təki onlarda bizimlə çalışmaq həvəsi olsun".

> *"Düdənginskini hansısa Njde, Njdeyə bənzərlərlə müqayisə etmək, onlara tay tutmaq qətiyyən yolverilməzdir"*

F.Ələkbərli bildirir ki, Düdənginski Almaniyanın SSRİ üzərində qələbə əldə edəcəyi təqdirdə Azərbaycanın müstəqillik qazanacağına inanmışdı.

"Düdənginski özü də sonralar yazırdı ki, həmin dövrdə bu təşkilat təsadüfən yaranmayıb. Milli Birliyin yaranmasına başlıca səbəb Azərbaycan Sovet Rusiyası tərəfindən işğal olunduqdan sonra ən çox təcavüzə uğraması, yəni milli mənsubiyyəti, milli dili və tarixi tamamilə saxtalaşdırılmış yeganə millət olması olub. Bu barədə Əbdürrəhman bəy yazırdı: "Tarixin bəzi saxtakarlarının bu cür "səylərinə" görə azəri türkləri Qafqazda yad xalq kimi hesab olunurdular və buna görə də bütün xalqlar öz əsl adları ilə tanınanda bizə əmr olundu ki, "azərbaycanlı" adlanaq. Bütün xalqlar öz rəmzlərindən istifadə edə bildiyi halda, bizə əmr olunmuşdu ki, türk rəmzi olan ulduz və ayparanı ləğv edək. Heç kimin ixtiyarı yox idi ki, "türk" və "müstəqillik" sözündən istifadə etsin" - deyə bildirən F.Ələkbərlinin sözlərinə görə, bu gün Paşinyanın və erməni mediasının Düdənginskiyə qarşı hər hansı bir qarayaxma kampaniyası aparması fayda verməyəcək. "Bütün hallarda, Paşinyanın və onun ətrafının Düdənginskiyə və Rəsulzadəyə qarşı istənilən qarayaxma kampaniyası aparması mənasız və faydasızdır. Yeri gəlmişkən, İkinci Dünya Müharibəsindən sonrakı illərdə Düdənginski Münhendə ictimai-siyasi fəaliyyətini davam etdirib və 1951-ci ildə "Azərbaycan" jurnalının, 1953-1954-cü illərdə "Azadlıq" radiosunun Azərbaycan redaksiyasının baş redaktoru olmuşdu. O dövrdə də o, Azərbaycan milli ideyasına sadiq qalıb. Onun yazılarında qeyd edildyinə görə, indi isə biz yalnız ona görə yaşayırıq ki, yenidən silahı əlimizə alaq və xalqımızla birgə bolşevizmə qarşı azadlıq, müstəqillik və demokratiya uğrunda, bütün Yer kürəsində əbədi sülh uğrunda mübarizə aparaq. "Böyük Tanrım, böyük Tanrım, sən bizim qanımızı yerdə qoyma!" - deyirdi. Yəni Düdənginskinin əsas məqsədi Azərbaycanın Bolşevik Rusiyasının işğalından azad olması idi. Düdənginskini hansısa Njde, Njdeyə bənzərlərlə müqayisə etmək, onlara tay tutmaq qətiyyən yolverilməzdir. Birmənalı şəkildə hesab edirəm ki, elə Rəsulzadə də, Düdənginski də heç vaxt Azərbaycanın milli maraqlarına xəyanət etməyiblər. Əlbəttə, dövrün şərtlərinə uyğun olaraq Düdənginski bəlkə də Rəsulzadədən fərqli olaraq, Almaniya ilə danışıqlarda daha yumşaq mövqe tutmuşdu. Ancaq, bütün hallarda, gördüyümüz kimi, Rəsulzadə də onun fəaliyyətinə çox yüksək qiymət vermişdi. Biz məhz Düdənginskiyə M.Ə.Rəsulzadənin gözü ilə baxmalıyıq, hansısa Paşinyanların, yaxud onun ətrafındakıların deyil" - deyə F.Ələkbərli vurğuladı.

***İradə SARIYEVA***

# Paşinyan "qaza vahid qiymət", Putin "əvvəlcə vahid büdcə və vahid vergi sistemi" dedi - Ermənistan Avrasiya İB-nin strategiyasını iflic etdi...

**Ali Avrasiya İqtisadi İttifaqının iclasında Ermənistanın baş naziri Nikol Paşinyan qurumun ümumi enerji bazarının yaradılması və qaz qiymətlərinə vahid yanaşma məsələsini qaldırıb. Buna cavab olaraq Rusiya Prezidenti Vladimir Putin bildirib ki, vahid tarif yalnız vahid büdcə və vahid vergi sisteminin olduğu bazarda tətbiq edilə bilər:**

"Bu inteqrasiya səviyyəsinə çatmayana qədər qaz qiymətləri bazar şərtləri əsasında formalaşdırılmalı, tədarükçülərin xərcləri və investisiyaları nəzərə alınmalı və istehsalata yatırılan kapitala uyğun gəlir dərəcəsi təmin edilməlidir".

Putin xatırladıb ki, tranzit və qaz nəqli üçün tariflərin müəyyən edilməsi məsələsi Avrasiya İqtisadi İnteqrasiyasının 2025-ci ilədək inkişafına dair Strateji istiqamətlər layihəsinə daxil edilib. Putinin fikrincə, məsələ strategiya layihəsindən çıxarılmalıdır: "Erməni və belaruslu dostlarımızın mövqeyi dəyişməz qalsa, ehtimal ki, qazla əlaqəli maddənin təsdiqlənməsi üçün strategiya layihəsindən çıxarılması məntiqli olardı. Qaz qiymətlərinə yanaşmaların müzakirəsi üzv dövlətlərin ekspertləri və Avrasiya İqtisadi Komissiyası tərəfindən davam etdirilə bilər".

Onun sözlərinə görə, Rusiyanın mövqeyi Qazaxıstan və Qırğızıstan tərəfindən dəstəklənir. "Üç ölkə - Rusiya, Qazaxıstan və Qırğızıstan tərəfindən dəstəklənən bir düstur var. Bunun mahiyyəti odur ki, qazın qiymətinə dair yanaşmalar sonradan AAİİ bazarının formalaşdırılması ilə bağlı danışıqlarda müəyyən oluna bilər. Ermənistan və Belarusdan olan həmkarlarımız bu düsturu hələ qəbul etməyiblər, onların öz fikirləri var. Onlar onunla razılaşa bilsələr, strategiyanı ümumiyyətlə təsdiqləmək üçün başqa heç bir maneə olmazdı".

Göründüyü kimi, Paşinyanın qazın qiyməti ilə bağlı güzəşt əldə etmək cəhdi alınmayıb və Putin həmin niyyəti onun ürəyində saxlayıb. Paşinyanın növbəti dəfə belə rüsvay olması nəyin əlaməti sayıla bilər?

İqtisadçı Asif İbrahimov "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Ermənistanın cabalaması başadüşüləndi:"Bilirsiniz ki, Ermənistan təbii ehtiyatlarla zəngin olmayan ölkədir. Üstəlik də yürütdüyü işğalçı siyasət həmin ölkəni blokada şəraitinə salıb. Hər bir ölkədə olduğu kimi, Ermənistanda da enerji daşıyıcılarına böyük tələbat var. Ancaq görünən budur ki, Ermənistan Rusiyadan aldığı qazın pulunu ödəyə bilmir. Bu amil, hətta Paşinyandan əvvəlki hakimiyyətlərin dönəmində də özünü göstərib. Dəfələrlə olub ki, Rusiya borc

***Asif İbrahimov:** "Bəlli oldu ki, Rusiyanın quruma üzv olan ölkələrlə bağlı öz planı var və qazın ucuz satılması hələ uzun müddət müzakirə mövzusu ola bilməz"*



səbəbindən Ermənistana qaz nəqlini dayandırıb. Paşinyan hakimiyyətə gələndən sonra isə Rusiyanı şantaj edib, onlardan ucuz qaz almaq istədi. Əvvəlcə Rusiyanın "Qazprom" şirkətinin Ermənistandakı törəmə şirkətində yoxlamalar apardı, hətta həbslər də oldu. Onun bu addımı əks effekt verdi. Rusiya öz mövqeyində, qazla bağlı qiymət siyasətində daha sərt mövqe ortaya qoydu. Bütün bunlar səmərə vermədi və Paşinyan koronavirus amilindən istifadə etməyə çalışdı. Ali Avrasiya İqtisadi İttifaqının iclası ərəfəsində Paşinyan hədəyə bənzər bir açıqlama verdi. Bildirdi ki, Rusiya ilə qaz qiymətləri ilə bağlı siyasi məsləhətləşmələr davam etdiriləcək.

Paşinyan dedi ki, koronavirus şəraitində Rusiyanın qaz qiymətlərini qaldıracağını gözləmir. Yəni Ermənistan faktiki olaraq bu məsələdə özünü Rusiyaya yük etmək istəyir. Hazırda Rusiyanın da iqtisadi vəziyyəti yaxşı deyil. Bu səbəbdən də Putin Paşinyana çox sərt cavab verdi və onu, demək olar ki, yerinə oturtdu. Bəlli oldu ki, Rusiyanın quruma üzv olan ölkələrlə bağlı öz planı var və qazın ucuz satılması hələ uzun müddət müzakirə mövzusu ola bilməz. Ermənistanın başqa alternativi də yoxdur. Faktiki olaraq bu vəziyyət Ermənistandakı iqtisadi situasiyanı daha da pisləşdirəcək. Dilənçi kökündə olan ölkə daha ağır problemlərə düçar olacaq. Bunu kompensasiya etmək üçün isə Ermənistanın əlində ciddi iqtisadi resursu yoxdur".

***Məhəmmədəli QƏRİBLİ***

---

# Rusiya əleyhinə Paşinyançı təbliğat tündləşir - "Avrasiya İB Moskvanın həbs düşərgəsidir"...

**Açıq rusofobiya ritorikası Ermənistanda sürətlənib. Artıq hökumətyönlü mətbuat orqanları da bu işdə fəallıq göstərirlər. Son vaxtlar belə yazıları öz "öhdəsinə" hökumətyönlü "Qraparak" və "Birinci informasiya" kimi nəşrlər götürüb.**



***Məhəmməd Əsədullazadə:** "Bu kampaniya Paşinyana sərf edir"*

Ermənistan mediasında qazın qiymətinə dair məqaləsində erməni publisist Aram Amatuni Avrasiya İqtisadi İttifaqı ölkələrini əsir düşərgəsi ilə müqayisə edib. Qeyd edib ki, bu ölkələr zorla ora yerləşdirilib.

Onun sözlərinə görə, qazın qiymətini azaltmaq üçün Rusiya müəyyən siyasi güzəştləri gözləyəcək, əks halda heç nə dəyişməyəcək: "Başqa sözlə, ya qazın qiyməti aşağı düşür, ya da Rusiya bu addımı atmır və buna uyğun olaraq aydın olur ki, AİI ortaq iqtisadi maraqlara deyil, sadəcə, Rusiyanın geosiyasi maraqlarına xidmət edir. Digər üzv ölkələrin yerləşdiyi bir əsir düşərgəsi Moskva üçün iqtisadi və siyasi xammal mənbəyindən başqa bir şey deyil. Bu vəziyyətdə məlum olur ki, kim daha güclü olacaq: AİI-yə üzv dövlətlərin suverenliyi və iradəsi, yoxsa əsir düşərgəsinin tikanlı məftilləri".

Belə görünür ki, artıq dövlət mətbuatı səviyyəsində Paşinyan anti-Rusiya təbliğatını gücləndirib. Əvvəllər Rusiya əleyhinə olan yazılar müstəqil mətbuatda yer alırdısa, artıq hökumətyönlü mətbuatda da bu kimi yazıların sayı artır.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadə buna bir neçə aspektdən yanaşdı: "Ermənistanda anti-Rusiya kampaniyası əsasən Paşinyan iqtidara gələndən sonra vüsət aldı. Çünki bu hakimiyyət Rusiyaya qarşı bir siyasət ortaya qoymalı və ölkəni Qərbə inteqarsiya etdirməli idi.

*"O bununla Rusiyanı günahlandırmaq üçün zəmin formalaşdırır"*

Ancaq baş verənlər və ölkədə gedən proseslər Paşinyanın Rusiyanın buxovundan çıxmasına gətirib çıxarmadı. Çünki Ermənistan Rusiyanın forpostudur və Kremlin dəstəyilə ayaqda qalır. Ermənistan müstəqil dövlət kimi heç bir iqtisadi imkanlara malik deyil. Belə olan təqdirdə Ermənistanın Rusiyadan asılılığı davam edir. Rusiyanın bu ölkəyə ixrac etdiyi qazın qiymətlərində güzəşt etməməsi Paşinyan hakimiyyətini qıcıqlandırır. İrəvanın israrlarına baxmayaraq, Moskva güzəştə getmək fikrində deyil. Avrasiya İttifaqının iclasında Putin öz mövqeyini ortaya qoydu. Göründüyü kimi, Rusiyanın Ermənistana aşağılayıcı münasibəti ölkə mediasında qəzəb doğurur.

Onlar artıq bunu aşağılayıcı hal kimi qəbul edirlər. Ona görə də artıq hökumətyönlü mətbuatda da Rusiyaya qarşı sərt yazılar dövriyyəyə buraxılır. Bu kampaniya Paşinyana sərf edir. O bununla Rusiyanı günahlandırmaq üçün zəmin formalaşdırır. Bu minvalla, Rusiyanın təsirini azaltmaq istəyir. Ancaq baş verənlər Kremldə qəzəblə qarşılanır və hazırda Moskva Paşinyanın əleyhinə yeni siyasi kurs götürüb".

***Vidadi ORDAHALLI***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



# Ermənistan əsas zərbəni Naxçıvandan gözləyir - İrəvan panik durumda...

**Azərbaycan Ordusunun mayın 18-dən başlanan və bu ayın 22-nə qədər davam edəcək genişmiqyaslı əməliyyat-taktiki təlimi Ermənistanda getdikcə daha böyük xof yaradır.**

Xatırladaq ki, təlimlərə 10 min hərbi qulluqçu, 120 ədəd tank və digər zirehli texnika, 200 ədəd müxtəlif çaplı raket və artilleriya stansiyaları, minaatanlar, eləcə də 30 ədəd aviasiya vasitələri, müxtəlif təyinatlı PUA-lar cəlb olunub. Bu, cari il ərzində Azərbaycan Silahlı Qüvvələrinin ikinci genişmiqyaslı hərbi təlimidir, birinci genişmiqyaslı hərbi təlim mart ayında olub. Birinci hərbi təlimin xarakteri haqqında məlumat verilməsə də, istifadə olunmuş silah növlərindən çıxış edərək ehtimal etmək olar ki, hərbi təlim hücum xarakterli daşıyıb. Elə indiki təlimlərdə istifadə edilən silahlar da eyni qənaəti bölüşməyə əsas verir.

Təlimlərin gedişinə bu yaxınlarda orduya yeni hərbi əməliyyatlara hazır olmaq barədə əmr verən müdafiə naziri, general-polkovnik Zakir Həsənov birbaşa nəzarət edir. Yeri gəlmişkən qeyd edək ki, genişmiqyaslı əməliyyat-taktiki təlimlər çərçivəsində cəbhə bölgəsində olan müdafiə naziri və nazirliyin digər rəhbər heyəti səhra şəraitində ərazidə açılmış komanda idarəetmə məntəqəsində olublar. Qoşunların döyüş fəaliyyətinin təşkilini yoxladıqdan sonra müdafiə naziri əməliyyatların planlaşdırılması, təminat, döyüşü idarəetmə, artilleriya, kəşfiyyat, hava hücumundan müdafiə və digər qoşun növlərinin idarəetmə qruplarına baş çəkib, idarəetmə orqanlarının fəaliyyəti ilə bağlı müvafiq göstərişlər verib. Bütün bunları isə ermənilər özləri üçün böyük təhdid sayır. Erməni hərbi ekspert Davit Camalyan bildirir ki, Azərbaycan tərəfindən hücum xarakterli hərbi təlimlərin keçirilməsinin yalnız bir məqsədi var:"Aydındır ki, Azərbaycan tərəfi aktivləşib. Çünki görür ki, Ermənistan hakimiyyəti danışıq platformasında vəziyyəti o nöqtəyə çatdırıb ki, Bakı ya danışıqlarda erməni tərəfindən istədiyini alacaq, ya da güc yolu ilə məqsədinə nail olacaq". "News.am" saytı isə iddia edir ki, Azərbaycan mümkün müharibədə Ermənistan ordusunun hərəkətini yayındırmaq və Qarabağdakı hərbi birləşmələrlə əlaqəsini kəsmək üçün paytaxt İrəvanı hədəfə ala bilər. "Azərbaycan sərhədlərinə yerləşdirilən raket sistemlərinin belə bir imkanı var. "Pələng" sistemlərinin Naxçıvana yerləşdirilməsi də bu cür ehtimalları gücləndirir".

Yeri gəlmişkən qeyd edək ki, bu mövzuya ABŞ-ın "Ceymstaun" Araşdırma Fondu da xüsusi olaraq toxunub. Burada qeyd edilir ki, Bakı Naxçıvandakı qüvvələrini gücləndirmək üçün genişmiqyaslı səylərə hazır olduğunu nümayiş etdirir. Bunun növbəti sübutu isə strateji əhəmiyyətli anklavda Türkiyədən alınan ən yeni və yüksək dəqiqlikli TRG-300 "Pələng" 300 millimetrlik reaktiv yaylım atəşi sistemlərinin yerləşdirilməsidir. Həmin silahlar Azərbaycan Müdafiə Nazirliyinin "YouTube" kanalında yerləşdirilmiş və Naxçıvan qarnizounda silahların, hərbi texnikanın yay rejiminə keçirilməsi barədə süjetində gözə dəyir. Fond qeyd edir ki, "Roketsan" şirkəti tərəfindən istehsal edilən TRG-300 "Pələng" reaktiv yaylım atəşi sistemi Türkiyənin 300 millimetrlik reaktiv yaylım atəşi sistemlərinin son versiyasıdır. Bu sistem kifayət qədər yüksək dəqiqlikli raketlər buraxır, "Pələng" raketlərinin hədəfdən ehtimal olunan dairəvi yayınması 10 metrdən də azdır. Raketlər GPS sistemi ilə dəstəklənir, 105 kiloqram ağırlıqlı döyüş başlığına malik olan "Pələng" raketinin radiusu 120 kilometrdir. Lakin raketin daha dağıdıcı döyüş başlığına malik olan versiyası da var. Belə ki, 190 kiloqramlıq döyüş başlığı daşıyan "Pələng" raketi 90 kilometrdən hədəfi vura bilir, bu zaman hədəfdən mümkün yayınma 80 metrə qədər çata bilər. Amma bu ehtimal olunan yayınmanı raketin yüksək dağıdıcı gücü kompensasiya edir.

Qeyd edək ki, Azərbaycan bundan əvvəl Türkiyədən 300-millimetrlik "Kasırğa" reaktiv yaylım atəşi sistemləri alıb və həmin sistemlərdən bir qismini Naxçıvanda yerləşdirib. İndiki halda "Pələng" raketlərinin Əlahiddə Ümumqoşun Ordunun silahlanmasına daxil edilməsi, şübhəsiz ki, Naxçıvanda dislokasiya olunmuş ordu hissələrinin döyüş qabiliyyətini daha da gücləndirmiş olur. O da mühüm faktdır ki, "Pələng" raketlərinin hər iki variantı, paytaxt İrəvan da daxil olmaqla Ermənistan ərazisindəki strateji hədəflərə birbaşa zərbə endirməyə imkan verir. O cümlədən "Kasırğa" raket sistemləri də bu imkanı Azərbaycan ordusuna yaradır. Digər tərəfdən Naxçıvanda, "Smerç" reaktiv yaylım atəşi sistemləri də daxil olmaqla, digər reaktiv sistemlər də yerləşdirilib. O cümlədən, Azərbaycanın İsraildən aldığı yüksək dəqiqlikli "Lora" əməliyyat- taktiki raketlərinin də Naxçıvanda yerləşdirildiyi məlumdur.

Ümumiyyətlə, Naxçıvan ərazisində hərbi hissələrin maddi-texniki bazasının gücləndirilməsi, silah-sursat, ən müasir döyüş texnikası, aviasiya və artilleriya qurğuları ilə komplektləşdirilməsi Azərbaycanın bu bölgəyə strateji baxımdan nə qədər önəm verdiyini əyani sübut edir. Bu gün Azərbaycan Silahlı Qüvvələrinin təchiz edildiyi yüksək dəqiqliyə və çox böyük məhvetmə gücünə malik müasir silahları, döyüş və nəqliyyat helikopterləri, təyyarələri, hava hücumuna qarşı ən müasir qurğuları, zirehli maşınları, tankları və artilleriya qurğuları var. Onların bir hissəsi məhz Naxçıvanda yerləşdirilib. Yalnız bunu qeyd etmək kifayətdir ki, Naxçıvanda yerləşdirilmiş "Smerç" raket sistemləri təkbaşına düşmən ərazisindəki istənilən hədəfi məhv etməyə qadirdir. "Smerç" sistemi dördoxlu MAZ-543M yük avtomobilinin üzərində yerləşdirilmiş 300 millimetrlik 12 boru paketindən ibarətdir. Bu sistem bütün raketləri 38 saniyəyə ata bilir. Tərkibində dörd "Smerç" sistemi olan batereya 48 ədəd raketlə sahəsi 64 min kvadratmetr olan ərazini tamamilə kül edə bilir. Altı ədəd "Smerç"dən ibarət bir briqananın açdığı yaylım atəşi ilə bir diviziyanın hərəkətini dayandırmaq və ya kiçik bir şəhəri tam məhv etmək mümkündür. Azərbaycanda 30 belə sistem olduğu məlumdur və onların bir hissəsi də məhz Naxçıvanda yerləşdirilib. Yuxarıda qeyd olunduğu kimi Naxçıvanda yerləşdirilmiş "Smerç" raket sistemləri təkbaşına düşmən ərazisindəki istənilən hədəfi məhv etməyə qadirdir. Ekspertlər hesab edir ki, 90 kilometrlik məsafədə hədəfi vurmaq qabiliyyətinə malik "Smerç"lərin Naxçıvanda saxlanılması təsadüf deyil. Naxçıvanla İrəvanın arası 80 kilometrdir. Ermənilər onu da bilir ki, bu silah nüvə silahından sonra dünyanın ən təhlükəli silah hesab edilir. İndi düşməni lərzəyə salan həm də o faktdır ki, "Smerç"lərlə yanaşı, Azərbaycan həm də "Pələng" raketlərini Naxçıvana yerləşdirib. Bu silahlar qısa zamanda Ermənistanda bütün hərbi hissələri məhv edə bilər. Bu isə o deməkdir ki, Dağlıq Qarabağ münaqişəsinin hərbi həlli zamanı düşmən qısa müddətdə bütün istiqamətlərdə məhv ediləcək.

Elə bu fonda "Ceymstaun" Araşdırma Fondu bildirir ki, Naxçıvan Qarabağda alovlana biləcək mümkün irimiqyaslı hərbi əməlyyatlar zamanı hücum üçün ikinci istiqamət rolunu oynaya bilər. Belə ki, bu hücum iki mümkün variantda baş verə bilər. Azərbaycanın Naxçıvanda dislokasiya olunmuş Əlahiddə Ümumqoşun Ordusu Qarabağ istiqamətində erməni qüvvələri yayındırmaq üçün Ermənistanın paytaxtı İrəvan istiqamətində hücuma keçə bilər. İkinci variant isə odur ki, hücum Ermənistanla Qarabağdakı erməni qüvvələri arasında kritik əlaqəni kəsməyə hesablanar. Fond ekspertlərinə görə, 2016-cı ilə qədər belə ssenarilər olduqca az ağlabatan sayılırdı. Lakin həmin ilin aprelində baş vermiş ciddi toqquşmalardan sonra Azərbaycan ordusu sübut etdi ki, 1990-cı illərin əvvəllərinə nisbətən indi daha effektiv hücum həyata keçirilməsini təmin edə bilər. Bu ssenarilər baxımından Türkiyədən alınan reaktiv yaylım atəşi sistemləri Naxçıvan istiqamətindən Ermənistan paytaxtına, yaxud daha düşünülmüş variantda Ermənistanı Dağlıq Qarabağla birləşdirən şosseyə zərbə endirmək üçün tətbiq edilə bilər. O da xatırlanır ki, Türkiyə ordusu TRG-300 "Pələng" reaktiv yaylım atəşi sistemlərini Suriyanın şimalında apardığı hərbi əməliyyatlarda uğurla tətbiq edib. İlin əvvəllərində Türkiyə ordusunun "Pələng" raketləri ilə endirdiyi zərbələr Suriya ordusunun mövqelərini darmadağın etmişdi. Azərbaycanın da analoji təcrübədən istifadə ehtimalı kifayət qədər yüksəkdir. Erməni hərbi-siyasi analitik Mqer Hakobyan da bunu istisna etmir: "Azərbaycan ordusu növbəti genişmiqyaslı hərbi təlimlərini keçirir. Bu durumda Ermənistan ciddi müharibə zərbələri gözləyə bilər. Özü də nəzərə almaq lazımdır ki, Azərbaycan Türkiyədən aldığı yüksəkdəqiqlikli silahları bizdən çox da uzaqda olmayan Naxçıvanda da yerləşdirir. Mən düşünürəm ki, bu, ciddi müharibə müqəddiməsidir. Mənə elə gəlir ki, bizi həm də birbaşa şəkildə psixoloji şantaj edirlər". Hakobyan qeyd edib ki, Qarabağ münaqişəsi prosesində gərginliyin artması və zəifləmələr müntəzəm xarakter daşıyır: "Bu, yenilik deyil. Amma təbii ki, bütün xidmətlərimiz gərgin şəkildə işləməlidir".

Erməni hərbi-siyasi analitik onu da bildirib ki, indiki halda Azərbaycan hərbi cəhətdən üstünlüyünü sürətlə artırır. Bu vəziyyətdə o, Qarabağ münaqişəsinin hərbi həllinin Ermənistan üçün ciddi təhdidlər yaratdığını da etiraf edir.

***Tahir TAĞIYEV***

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Prezident rəqəmsallaşdırmanı Azərbaycanın əsas prioritetlərindən biri elan etdi

**"Ölkəmizin rəqəmsallaşdırılması, informasiya texnologiyalarının bütün sahələrdə tətbiq edilməsi bizim prioritet sahəmizdir". Bunu Prezident İlham Əliyev Azərbaycan Televiziyasına müsahibəsində deyib.**

*"Bu, ölkəmizin dünyada iqtisadi baxımdan rəqabət qabiliyyətinin artmasında mühüm rol oynayacaq"*

Ölkə başçısının sözlərinə görə, gələcək illərdə Azərbaycan informasiya-kommunikasiya texnologiyaları sahəsində liderlik mövqelərini daha da möhkəmləndirəcək: "İnformasiya-kommunikasiya texnologiyaları sahəsi bir neçə il bundan əvvəl mənim təşəbbüsümlə Azərbaycanda geniş vüsət almağa başlamışdır. Xatırlayıram, biz kosmik sənayenin yaradılması ilə məşğul olmağa başlayanda bəziləri təəccüb edirdi, bəziləri düşünürdü ki, Azərbaycan o qədər də böyük ölkə deyil, - kosmik klub dünya miqyasında çox məhdud bir klubdur, - və Azərbaycan üçün orada özünə yer tapmaq çətin olacaq. Ancaq həyat göstərdi ki, biz düzgün yoldayıq. Ona görə informasiya-kommunikasiya texnologiyalarının inkişafı ilə bağlı bütün addımlarımız düzgün idi".

Prezident onu da qeyd edib ki, pandemiya dövründə, özünütəcrid şəraitində informasiya texnologiyaları olmadan iş görmək mümkün deyil: "Misal üçün, mənim görüşlərim, videokonfrans şəklində keçirdiyim Zirvə görüşləri müasir texnologiyalar olmadan mümkün deyil. Ona görə hazırda həm iqtisadi sahədə, həm təhsil, səhiyyə, kənd təsərrüfatı sahələrində və digər sahələrdə, o cümlədən, bizim su resurslarının nəzarəti, su balansının formalaşması və itkilərin azaldılması istiqamətində də məsələ qaldırıldı. Ona görə bu sahə, hər kəs bunu bilməlidir, gələcəyə atılan addımdır".

Görünən odur ki, ölkənin rəqəmsallaşdırılması əsas zərurətə çevrilib. Maraqlıdır, bu istiqamətdə aparılan siyasət bizə nə verəcək?

Məsələyə münasibət bildirən İqtisadi Resursların Öyrənilməsi Mərkəzinin direktoru Ruslan Atakişiyevin sözlərinə görə, rəqəmsallaşdırma və informasiya texnologiyalarının bütün sahələrdə tətbiqi ölkəmizə bir sıra üstünlüklər vəd edir: "Dünyanın bir sıra ölkələrində həm dövlət, həm də özəl sektor çox geniş şəkildə informasiya və

## **Ruslan Atakişiyev:** *"Rəqəmsallaşdırma və informasiya texnologiyalarının bütün sahələrdə tətbiqi ölkəmizə bir sıra üstünlüklər vəd edir"*



kommunikasiya texnologiyalarının tətbiqindən istifadə edir.

Əslində, biz dördüncü sənaye inqilabı dövründə yaşayırıq. Dördüncü sənaye inqilabının bir mahiyyəti də ondan ibarətdir ki, bütün sistemlər elektronlaşdırılır. Yəni bütün sahələrdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi daha da genişləndirilir. O baxımdan bu sahə çox önəmlidir. Hesab edirəm ki, Azərbaycanda İKT-nin tətbiqinin genişləndirilməsi ölkəmizin dünyada iqtisadi baxımdan rəqabət qabiliyyətinin artmasında mühüm rol oynayacaq. Nəticədə daha çox rəqabətyönlü məhsul dünya bazarına çıxara biləcəyik. Bu da emal sənayesinin və ümumiyyətlə, qeyri-neft sektorunun inkişafına ciddi təkan verəcək".

***Vidadi ORDAHALLI***

# Azərbaycan üçün "Smart şəhər" və "Smart ölkə" layihələri nə deməkdir...

**"...Heyətim mənə məlumat verib ki, bu sahələrdə, xüsusən də müzakirə etdiyimiz kimi, "Ağıllı şəhər" layihəsi sahəsində işlər yaxşı gedir. İndi isə siz yeni "Smart ölkə" ideyası ilə çıxış edirsiniz.**



## **Rəşad Həsənov:** *"Bu layihənin iqtisadi əhəmiyyəti odur ki, iqtisadi idarəetmənin çevikliyi təmin olunur"*

Nəinki şəhər infrastrukturu, nəqliyyat, dayanacaq yerləri və bəzi digər şəhər infrastrukturu, o cümlədən, qlobal "Smart ölkə" konsepsiyası ortaya çıxır və biz onu tam dəstəkləyirik. Söylədiyiniz kimi, o, təhsili, kibertəhlükəsizliyi, səhiyyəni və əvvəlcə müzakirə etdiyimiz kimi, əlavə edərdim ki, kənd təsərrüfatı və su ehtiyatlarının idarə olunmasını əhatə edir. Mən buna sonradan qayıdacağam. Lakin, ilk olaraq, mənə sizin "Quantela" şirkəti ilə əməkdaşlığınız haqqında məlumat verildi. Əlbəttə ki, biz bunu tam dəstəkləyirik. "Smart ölkə" layihəsinin inkişaf gündəliyi üzrə tam tədqiqatın, bir növ, "yol xəritəsi"nin hazırlanması da fikrimcə, çox faydalı olardı". Bu fikirləri mayın 15-də CISCO şirkətinin təşəbbüsü ilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə bu şirkətin icraçı vitse-prezidenti və baş maliyyə direktoru xanım Kelli Kramer, vitse-prezidenti Qay Ditrix və CISCO rəhbərliyinin digər nümayəndələri arasında keçirilən videokonfransda Prezident İlham Əliyev söyləyib.

"Smart ölkə" və "Smart şəhər" nədir, bu layihənin bizim üçün nə kimi əhəmiyyəti var?

Bu layihənin kifayət qədər faydalı olduğuna diqqət çəkən ekspertlərin sözlərinə görə, layihənin həyata keçirildiyi ərazidə hər şey maksimum rəqəmsallaşmalıdır. Məsələn, zibil yeşikləri dolarkən "Təmiz Şəhər"ə avtomatik xəbərdarlıq gedir, su və qaz borularında nasazlıq olan zaman sakinlər smartfonlarında "applicationlar" vasitəsilə xəbərdarlıq alır, hər kəs yaşadığı ərazidə radiasiyanın miqdarını ölçə və müşahidə edə bilir. Çirkab suları son innovasiyalı texnologiya ilə, xlorsuz, ətraf mühitə zərər verməyən üsullarla təmizlənib emal olunur. Sakinlər onlar üçün yaradılmış xüsusi elektron portalda qəsəbələrində baş verən texniki və ekoloji dəyişikliklərə səs verərək, özləri seçə bilmək hüququna malik olurlar. Zibil yeşikləri plastik, yağ, kağız və sairə olaraq çeşidləndirilir.

Tanınmış iqtisadçı Rəşad Həsənov layihə ilə bağlı baki-xeber.com-a bildirdi ki, "Smart şəhər" və "Smart ölkə" layihəsi bir-iki sahə ilə məhdudlaşmır, o bütün istiqamətləri əhatə edir. "Bu layihədə izləmədən tutmuş, nəqliyyat sisteminin idarə edilməsinə, səhiyyə sistemində əlaqələndirmənin təmin olunmasına, dövlət qurumlarının rəsmi veb səhifələrinin müdafiə edilməsinə, qorunmasına qədər bütün sahələr əhatə olunur. Eyni zamanda su təchizatı sistemində elektronlaşmanın təmin edilməsinin, digər kommunal xidmətlərdə də bənzər prosesin həyata keçirilməsinin də daxil olduğu "Smart şəhər" və "Smart ölkə" layihəsinin istiqamətləri çoxdur. Bu layihədə həm nəzarətdən, həm də monitorinqdən söhbət gedir. Eyni zamanda da deyək ki, "Smart şəhər" layihəsi sistemindən istifadə etməklə su borusundakı axıntıların, eləcə də müvafiq texnologiyadan istifadə edərək qaz təchizatı sahəsində hansısa qanunsuz müdaxilənin qarşısının alınması üçün mübarizə aparmaq tam mümkündür. Bu layihə kifayət qədər çoxşaxəli və faydalı bir layihədir. Elektonlaşmanın və informasiya texnologiyalarının müasir imkanlarından istifadə etməklə rəqəmsal idarəetmənin, yükləmənin təmin olunması və kiberhücumların qarşısının alınmasında "Smart şəhər", "Smart ölkə" layihəsinin rolu əvəzsizdir. Bu layihə ilə, həmçinin, daha çox dövlət təhlükəsizliyi ilə əlaqədar olaraq müəyyən sistemlərə müdaxilənin aradan qaldırılması tam mümkündür. Məsələn, deyək ki, bu gün Bakı şəhəri əhəmiyyətli səviyyədə kameralarla izlənilir. Yəni hansısa tərəfdən bu sistemə, yaxud da elektron hökumət portalına kənar müdaxilənin olması məsələsinə diqqət çəkək. Bilirsiniz ki, elektron hökumət portalı xeyli sayda dövlət xidmətini onlayn şəkildə vətəndaşlara təklif edir. Bu sistemə kənar müdaxilənin olmasının, bu sistemin çökdürülməsinin və yaxud da dövlət əhəmiyyətli məlumatların əldə edilməsi üçün cəhdlərin aradan qaldırılmasının təmin edilməsi, ona uyğun olaraq adekvat, preventiv mexanizmlərin işlənib hazırlanması bu layihənin əhəmiyyətini əks etdirir".

*"...rəqəmsal idarəetmənin, yükləmənin təmin olunması və kiberhücumların qarşısının alınmasında..."*

R.Həsənov qeyd etdi ki, bu layihə kifayət qədər geniş və əhatəli olması ilə yanaşı, onun iqtisadi əhəmiyyəti də az deyil. "Təbii ki, bunun iqtisadi əhəmiyyəti də var. Bu layihənin iqtisadi əhəmiyyəti odur ki, dövlət idarəetməsinin, iqtisadi idarəetmənin çevikliyi təmin olunur, bir sıra istiqamətlərdə itkilərin həcmi azaldılır, eyni zamanda da resurslardan daha səmərəli istifadə edilməsi üçün müəyyən imkanlar formalaşdırılır" - deyə R.Həsənov qeyd etdi.

***İradə SARIYEVA***

# DİN-in aqrar sektorda və iaşədə "məcburi əmək monitorinqləri" barədə təşəbbüsü dəstəklənir

**Ölkədə sahibkarlıq sahəsində sistemli tədbirlər keçirilir. Görülən tədbirlərdən biri də sahibkarlıq sahəsində aparılan yoxlamaların 2021-ci ilədək dayandırılmasıdır. Məlumdur ki, "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" Qanunun tətbiqindən sonra bu sektorda aparılan yoxlamalar dayandırılıb.**



***Müslüm İbrahimov:** "Sahibkarlıq subyektlərində yoxlamaların aparılması zərurətdir"*

Ancaq ekspertlər hesab edirlər ki, yoxlamalar dayandırılmamalıdır. Aqrar sektorda və iaşə obyektlərində yoxlamaların aparılmasına ehtiyac var.

Daxili İşlər Nazirliyi bəzi sahələrdə yoxlamaların bərpa olunması barədə məsələ qaldırıb. Bunu Azərbaycanın İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatoru, Daxili İşlər nazirinin birinci müavini, polis general-mayoru Seyfulla Əzimov parlamentin son keçirilən plenar iclasında deyib. O qeyd edib ki, müvafiq qanunvericilik aktlarına əsasən, sahibkarlıq subyektlərində yoxlamalar dayandırıldığı üçün son illər kənd təsərrüfatı, ictimai iaşə və digər sahələrdə məcburi əmək faktlarının aşkarlanması üzrə monitorinqlər aparılmır. Ancaq məsələnin əhəmiyyəti nəzərə alınaraq, həmin yoxlamaların bərpa olunması üçün Daxili İşlər Nazirliyi tərəfindən aidiyyəti üzrə məsələ qaldırılıb.

*"...çatışmazlıqlar barədə mütəmadi olaraq məlumatlana bilsin"*

İqtisad elmləri doktoru Müslüm İbrahimov bildirdi ki, sahibkarlıq subyektlərində yoxlamaların aparılması zərurətdir: "Kənd təsərrüfatı sahəsində yoxlamaların aparılmasına ehtiyac var. Yoxlamalar ona görə aparılmalıdır ki, dövlət sahibkarlıqda mövcud olan çatışmazlıqlar barədə mütəmadi olaraq məlumatlana bilsin. Yoxlamalar təkcə cəzalandırmaq demək deyil. Bəzən qanunazidd situasiyaların yarandığı hallarda olur. Yoxlamaların daha dərin və böyük məqsədləri var".

*Günel CƏLİLOVA*

# DOST mərkəzlərində göstərilən 130 növ xidmət insanlarımızın rifahı üçün nə deməkdir...

**Məlum olduğu kimi, mayın 19-da Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzinin açılışı olub.**

Açılışda iştirak edən Prezident İlham Əliyev Mərkəzlə tanış olub. Eyni zamanda, dövlət başçısı Azərbaycan Televiziyasına müsahibə verib. Müsahibə zamanı Prezident bir sıra məqamlara toxunub. Qeyd edib ki, DOST mərkəzində 130-dan çox iş yeri yaradılır və o cümlədən, könüllülər də işlərə cəlb olunurlar. Bütövlükdə 130-dan çox xidmətin göstərilməsi demək olar ki, sosial sahənin bütün xidmətlərini ehtiva edir. Beləliklə, bu mərkəzlərin fəaliyyəti həm insanlara rahatlıq verəcək, eyni zamanda, şəffaflıq istiqamətində önəmli addım artıq özünü doğruldub.

Qeyd edildiyi kimi, DOST mərkəzlərində 130 növ xidmət göstərilir. İnsanların yüksək rifahı üçün göstərilən xidmətlər barədə məlumat verən iqtisadçı-ekspert Əli Əlirzayev bizimlə söhbətində bildirdi ki, hazırda DOST mərkəzində əmək, məşğulluq, sosial təminat sahələri üzrə 130 növdə xidmət göstərilir ki, bu xidmətlərdən də sakinlər lazımi dərəcədə istifadə edə bilirlər: "Artıq Azərbaycanda özünü doğruldan bu mərkəzlərdə gələcəkdə xidmətlərin sayının daha da artırılacağı istisna edilmir. 2025-ci ilə qədər bütün ölkə üzrə 31 DOST mərkəzi yaradılacaq və həmin mərkəzlər 2,8 milyon şəxsi xidmətlərlə təmin edəcək".

Mərkəzdə xidmətlərin "bir pəncərə", həmçinin, operativlik, vətəndaş məmnunluğu, şəffaflıq, nəzakətlilik, məsuliyyət və rahatlıq prinsipləri əsasında həyata keçirildiyini vurğulayan Ə.Əlirzayev hesab edir ki, bu məkan insanların etibarlı müraciət ünvanına çevrilib: "DOST mərkəzlərinin yaradılması vətəndaşların həyatında müsbət rol oynayır. Bu gün müxtəlif istiqamətlər üzrə fəaliyyət göstərən DOST mərkəzlərinə vətəndaşların sıx-sıx müraciət etməsi təbii haldır. DOST mərkəzləri ilə bağlı əsasnamədə bu mərkəzlərin göstərdiyi xidmətlər əks olunub. Deyərdim ki, əhalinin ehtiyacı olan bütün sahələri bu mərkəzlər əhatə edir. Bu xidmətlərin siyahısına əmək, məşğulluq, sosial təminat, ünvanlı dövlət sosial yardımı, əlillik, pensiya, sosial sığorta və digər aidiyyəti sahələr üzrə 130 növ xidmət daxildir. Bu elə bir xidmət sahəsidir ki, insanlar buradan ancaq razılıqla ayrılırlar. Bütün problemlərin həllinə burada kompleks yanaşılır. DOST mərkəzləri vətəndaşların məmnunluğunu təmin edirlər".

***Əli Əlirzayev:** "DOST mərkəzlərinin əhaliyə göstərdiyi xidmət kifayət qədər şəffaf və keyfiyyətlidir"*




Həmsöhbətimiz onu da əlavə etdi ki, mərkəzlərdə xidmətlərin birbaşa (yerində) xidmət, özünəxidmət, "çağrı mərkəzi" vasitəsilə xidmət və səyyar xidmət formasında, habelə qanunazidd olmayan digər formalarda təşkil edilməsi vətəndaşlara fayda verir: "Bununla yanaşı, mərkəzlərin fəaliyyətinə yardımçı xidmətlər, o cümlədən, cari bank hesablarının açılması, dövlət rüsumlarının və xidmət haqlarının qəbulu, daşınmaz əmlakın sığortası, inzibati xətalara dair cərimələrin qəbulu və sair də daxildir. Vətəndaşlar burada öz problemlərini asanlıqla həll edirlər. Qeyd edim ki, DOST mərkəzlərində əsas xidmətlər ümumi olaraq bir neçə istiqamətə bölünür. Burada istiqamətlərdən biri əmək münasibətləri ilə bağlıdır. Yəni işəgötürənlərə işçilər üzrə xidmətlərdir. Digər xidmət isə əlil və sağlamlıq imkanları məhdud olan əhaliyə göstərilən xidmətdir. DOST mərkəzlərində, həmçinin, məşğulluq, əmək pensiyaları, sosial müavinətlər, ünvanlı sosial yardımın təyin edilməsi, Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə müxtəlif şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün təyin edilməsi sahəsində də xidmətlər göstərilir.

Bu xidmətlərə eyni fərdi sığorta olunanların uçota alınması və uçotdan çıxarılması, sosial xidmət sahəsində müxtəlif xidmətlərin göstərilməsi daxildir. Bununla yanaşı, funksional yardım xidmətləri göstərilir. Yəni kreditlərdir, sığorta ödənişlərinin həyata keçirilməsi, avtomobillərin, daşınmaz əmlakın sığortası, notarius xidmətləri və s. bura aiddir. Vətəndaşların daha çox DOST mərkəzlərinə müraciət etməsinin səbəbi odur ki, burada onların problemləri daha asanlıqla həll olunur. Əhali bura çox müraciət edir. DOST mərkəzlərinin əhaliyə göstərdiyi xidmət kifayət qədər şəffaf və keyfiyyətlidir. Bu da vətəndaşların daha inamla bu mərkəzlərə üz tutmasına imkan verir"

*Günel CƏLİLOVA*

**Hələ də geniş şəkildə tüğyan edən koronavirus pandemiyası dünya iqtisadiyyatına ciddi zərbə vurmaqda davam edir. Özü də bu prosesdən böyük iqtisadiyyata malik ölkələrin daha çox təsirlənməsi müşahidə olunur. ABŞ, Avropa İttifaqı ölkələri, Çin, Rusiya və digərlərinin timsalında qeyd edilənlər özünü qabarıq büruzə verir.**

# Azərbaycan pandemiya dövründə də iqtisadi sahədə mühüm nümunə yarada bildi

Əsas gəlirləri neft-qaz satışı hesabına təmin edilən bir çox ölkələrdə qeyri-qənaətbəxş vəziyyət hökm sürür. Səudiyyə Ərəbistanı və bir sıra digər ərəb ölkələrinin timsalında da bunu aydın sezmək olar. Bütün bunlar fonunda Azərbaycanın durumuna nəzər salanda daha fərqli mənzərə müşahidə olunur. Belə görünür ki, Azərbaycanın qeyri-neft sektorunun inkişafı istiqamətində vaxtında atdığı addımlar öz nəticəsini verir. Ölkə iqtisadiyyatı digər ölkələrdəki kimi geriləmir, əksinə, cüzi də olsa artır. Daha bir vacib məqam isə həm də odur ki, Azərbaycan bu şəraitdə ixrac məsələsində yenə üstünlüyünü qoruyub saxlayır. Bunu real rəqəmlərə nəzər salmaqla da görmək olar. Belə ki, bu ilin yanvar-mart aylarında ölkənin xarici ticarət dövriyyəsi 6 milyard 695,3 milyon dollar təşkil edib. Ticarət dövriyyəsinin 4 milyard 58,3 milyon dollarını və ya 60,6 faizini ölkədən ixrac olunmuş məhsulların, 2 milyard 637 milyon dollarını, yaxud 39,4 faizini isə idxal məhsullarının dəyəri təşkil edib. Nəticədə 1 milyard 421,3 milyon dollar məbləğində müsbət saldo yaranıb. Cari ilin birinci rübündə qeyri-neft-qaz məhsullarının ixracı keçən ilin yanvar-mart aylarına nisbətən faktiki qiymətlərlə 3,4 faiz artıb. Mövsümi amillər fonunda aqrar sektor hesabına qeyri-neft sektorunda ilin növbəti rüblərində ixrac həcminin daha çox olması gözlənir.

Digər tərəfdən, yükdaşımalar hesabına da Azərbaycanın qeyri-neft gəlirlərində daha çox artım gözlənilir. Xüsusən də "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi hesabına bu artım proqnozlaşdırılır. İranın Dövlət Limanlar və Gəmiçilik Təşkilatının rəhbəri Məhəmməd Rastad da Azərbaycan üzərindən daşınan yüklərin xeyli artacağını bildirib. O qeyd edib ki, tranzit ölkə kimi İranın limanları daha çox yük qəbul etməyə başlayıb. Limanların yükaşırma gücünün artırılması artıq zərurətə çevrilib:"İranın Çabahar, Bəndər-Abbas, Şəhid Rəcayi kimi iri limanları beynəlxalq yükdaşımalarda əhəmiyyətli rola malikdir.



İran elə bir coğrafi məkanda yerləşir ki, bu ölkənin ərazisindən, dəmir yollarından və dəniz limanlarından Avropa ilə Asiya arasında tranzit yüklərin daşınması daha qısa zamana və ucuz qiymətə başa gəlir. Buradan da yüklər Azərbaycandan keçməklə Rusiya və Avropa istiqamətinə çıxır". Qeyd edək ki, İrana gələn yüklər Qəzvin-Rəşt-Astara(İran)-Astara(Azərbaycan) dəmir yolu ilə Azərbaycan ərazisindən keçməklə Rusiyaya, oradan isə Qərbi Avropaya daşınır. Əks istiqamətdə də yükdaşımalar intensiv şəkildə həyata keçirilir. Təkcə Səudiyyə Ərəbistanı Rusiya, MDB və Avropa ölkələrində 22 milyard dollar həcmində idxal əməliyyatı həyata keçirir. Ümumiyyətlə körfəz ölkələri Rusiyadan taxıl, Avropadan isə ərzaq məhsulları ilə yanaşı, texniki təchizat və tikinti materialları idxal edir. Hazırda İrana daxil olan tranzit yüklər əsas etibarı ilə "Şimal-Cənub" dəhlizi vasitəsilə Azərbaycanın üzərindən daşınır. Bu isə, ölkə büdcəsinin gəlirlərini artırmaqla yanaşı, qeyri-neft sektorunun inkişafına və yeni iş yerlərinin açılmasına şərait yaradır.

Hazırda yalnız Asiya ölkələri deyil, Avropa dövlətləri də idxal-ixrac əməliyyatlarını "Şimal-Cənub" vasitəsilə həyata keçirməyə çalışır. Çünki Rusiya və Azərbaycan üzərindən yüklərin Asiyaya göndərilməsi zaman baxımından tez, xərc baxımından isə ucuz başa gəlir. Müasir biznesdə isə zaman qazanmaq və az xərclə çox iş görmək olduqca əhəmiyyətlidir. Onu da qeyd etmək lazımdır ki, Azərbaycan nəinki regionda, ümumiyyətlə bütün dünyada ən sabit dövlətlərdən biridir. Bu isə o deməkdir ki, Azərbaycan öz ərazisindən keçən bütün yüklərin təhlükəsiz mənzil başına çatdırılmasını təmin etmək imkanına malikdir. Bütün bunlar nəticəsində Azərbaycan üzərindən yükdaşımalara maraq artır. Bu durumda ölkənin gəlirləri də yüksəlir. Baş verənləri şərh edən Milli Məclisin deputatı Vüqar Bayramov bildirir ki, Azərbaycan bu halda daha dayanıqlı iqtisadiyyat sahibinə çevrilir. Onun sözlərinə görə, pandemiya qlobal iqtisadiyyatda kəskin azalmalara gətirib çıxarıb: "Dünya iqtisadiyyatında, eləcə də aparıcı ölkələrin ümumi daxili məhsulunda azalma müşahidə edilir. Qlobal iqtisadiyyat üçün 2020-ci ildə proqnoz bütövlükdə dünya iqtisadiyyatının ikirəqəmli, yəni 10 faizdən çox azalmasından ibarətdir. Sevindirici haldır ki, Azərbaycan həm pandemiyadan əvvəlki dövrdə, həm də pandemiya vaxtı iqtisadi artım tempini qoruyub saxlaya bilib.

Azərbaycan pandemiya dövründə iqtisadi artımı qoruyub saxlayan azsaylı ölkələrdən biridir. Bu ondan xəbər verir ki, Azərbaycan pandemiyanın təsirlərini minimumlaşdıran, eyni zamanda, 3,5 milyard manatlıq iqtisadi, sosial və dəstək paketi həyata keçirməklə yanaşı, ÜDM-dəki artımı qoruyub saxlayan ölkələr sırasındadır. Pandemiya dövründə Azərbaycanın ümumi daxili məhsuldakı artım tempinin qorunub saxlanması pozitiv qiymətləndirilməlidir. ÜDM-də artımın qeydə alınması, xüsusən də Azərbaycanda qeyri-neft sektorunun inkişafı ilə bağlı aparılan islahatların nəticəsidir". Əvvəlki illərdə ölkəmizdə həyata keçirilən dərinləşmiş islahatların pandemiyanın Azərbaycan iqtisadiyyatına təsirlərini azaltdığını diqqətə çatdıran ekspert bildirib: "Bu, bir tərəfdən imkan verdi ki, Azərbaycan sahibkarlar, məşğul əhalinin və işləməyən vətəndaşlarımızla bağlı birbaşa dəstək paketi həyata keçirə bilsin. Bu dəstək paketi nəticə etibarilə pandemiyanın təsirlərini minimumlaşdırdı. Azərbaycan pandemiya dövründə 1,7 milyon nəfərədək özəl sektorda çalışan vətəndaşlarımıza birbaşa maliyyə dəstəyi göstərdi. Ölkədə aparılan islahatlar imkan verdi ki, Azərbaycan qeyri-neft sektorunun inkişafı hesabına ÜDM-dəki artım tempini qoruyub saxladı. ÜDM-in strukturuna diqqət yetirsək görərik ki, artım daha çox qeyri-neft sektorunun hesabına baş verir. Bu o deməkdir ki, qeyri-neft sektoru ÜDM-dəki və bütövlükdə iqtisadiyyatdakı artımda drayverə çevrilir. Pandemiyanın təsirləri qalır, neftin dünya bazarında qiyməti aşağıdır, lakin iqtisadi islahatlar və qeyri-neft sektorunun inkişafı ilə bağlı həyata keçirilən tədbirlər Azərbaycanın məhz pandemiya dövründə də iqtisadi artımı qoruyub saxla bilməsinə şərait yaradır.

**Bu isə təbii ki, postpandemiya dövrü üçün daha nikbin proqnozların verilməsi üçün baza yaradır. Nəzərə alsaq ki, iqtisadi paket strateji olaraq postpandemiya dövründə sahibkarların daha çox dəstəklənməsini nəzərdə tutub. Bu da nəticə etibarilə imkan verəcək ki, Azərbaycanın postpandemiya dövründə ümumi daxili məhsulunda daha yüksək iqtisadi artım müşahidə edə biləк. Bu, eyni zamanda, qeyri-neft sektorunun ÜDM daxil olmaqla makroiqtisadi göstəricilərdəki drayver rolunun qorunub saxlanması və genişləndirilməsinə xidmət edəcək".**

***Nahid SALAYEV***

**Azərbaycanın valyuta ehtiyatlarının tərkibində dolların payının hələ kifayət qədər yüksək olması heç kimə sirr deyil. Belə ki, 40 milyarddan çox ehtiyatların hələ də yarıdan çoxu məhz dollarda saxlanır. Bundan başqa, Azərbaycan bu ehtiyatların bir qismini ABŞ qiymətli kağızlarına yatırıb.**

# Azərbaycan dollar siyasətinə yenidən baxmağa hazırlaşır

Burada təxminən yarım milyard dollara yaxın vəsaitdən söhbət gedir. Amma koronavirus pandemiyası səbəbindən həm ABŞ qiymətli kağızları, həm də dollar üzərində yaranan təhlükənin miqyası artır. Onların hər ikisinin yaxın tezlikdə sürətlə ucuzlaşmağa başlaması proqnozlaşdırılır. Bu səbəbdən Azərbaycanın da dollar və ABŞ qiymətli kağızlarına sərmayəsi ilə bağlı siyasətinə müəyyən dəyişikliklər etməsi istisna deyil. Çünki əksər ölkələr bunu edir. Məsələn, artıq bəllidir ki, Çin ABŞ-ın qiymətli kağızlarını satışa çıxarmağa hazırlaşır.

Bu günlərdə "South China Morning Post" nəşri də belə bir məlumatla çıxış etmişdi ki, Pekin ABŞ qiymətli kağızlarından yaxa qurtarmaqda israrlıdır. Bildirilirdi ki, Çin ABŞ-ın dövlət istiqrazlarına 1,1 trilyon dollar məbləğində investisiya qoyub və hazırda bu rəqəmi azaltmaq barədə düşünür. Bu addımın ikitərəfli ticarət münasibətlərindəki yeni gərginliyə və COVID-19 pandemiyasına görə ölkələr arasındakı "söz müharibəsi"nə cavab olaraq atılacağı deyilir. Çinin qərarı həm də ABŞ-ın qiymətli kağızlar bazarı üçün problemlər yarada bilər. Çünki rəsmi Vaşinqton pandemiyanın iqtisadi təsirlərini azaltmaq üçün bir sıra proqramları maliyyələşdirmək istəyir və bu məqsədlə dövriyyəyə yeni qiymətli kağızlar buraxır. Amma indi onu alan yoxdur. Bundan başqa, investisiyalardan imtina ABŞ-ın nüfuzuna ciddi zərbə vuracaq və bu ölkənin qlobal investorlara ödəmə qabiliyyətini şübhə altına alacaq. Bu arada, "Deloitte China" nəşri də bildirib ki, Çin və Rusiya ABŞ hökumətinin dünya bazarında silah kimi istifadə etdiyi dollardan istifadəni dayandırmaq barədə müzakirələr aparır. Yeri gəlmişkən qeyd edək ki, Rusiya da ABŞ qiymətli kağızlarından yaxa qurtarmaq istiqamətində fəaliyyətini intensivləşdirib. Təkcə mart ayında Rusiya Amerika dövlət istiqrazlarına yatırılan investisiyaları üç dəfə, yəni 12,58 milyard dollardan 3,8 milyard dollara endirib. ABŞ Maliyyə Nazirliyinin məlumatına görə, Rusiyada qalan ABŞ dövlət istiqrazlarından 3,381 milyard dollar uzunmüddətli, 473 milyon dollar isə qısamüddətli kağızların payına düşür. Vaşinqtonda qeyd edildiyi kimi, bu, son aylarda ABŞ hökumətinin dövlət borcuna Rusiya investisiyalarının ilk əhəmiyyətli azalmasıdır. Hələ iki il əvvəl Mərkəzi Bank sanksiya çərçivəsində bütün qiymətli kağızlar portfelini satmışdı.

2010-2013-cü illərdə Rusiyanın Amerika borcuna yatırımı 170 milyard dollardan çox idi. Moskva qiymətli kağızların ən böyük sahibləri sırasına daxil idi. Lakin 2014-cü ilin aprelində Vaşinqtonun sanksiyalar tətbiq etməsindən sonra Rusiya bu qiymətli kağızlardan yaxa qurtarmağa başladı. Beynəlxalq ehtiyatlarda Amerika qiymətli kağızlarının payı minimuma endirilib. Onların satışından əldə olunan vəsaiti isə Rusiya Mərkəzi Bankı qızıla, həmçinin avro və yuana köçürüb. Ümumdünya Qızıl Şurasının (WGC) hesablamalarına görə, ötən il dünyanın mərkəzi banklarının balansında qiymətli metalın həcmi 651 ton artıb. Bu, 1971-ci ildən, yəni Birləşmiş Ştatların qızıl standartından imtina etdiyi zamandan bəri maksimum göstəricidir. 2019-cu ildə qiymətli metalın ən iri alıcısı Rusiya olub. Rusiya Mərkəzi Bankı qızıl ehtiyatlarını 2270,56 tonadək artırıb. Rus ekspert Natalya Dembinskaya isə bildirir ki, Amerikanın qiymətli kağızlarından yalnız Rusiya imtina etmir:"Birləşmiş Ştatların Maliyyə Nazirliyinin statistikasından göründüyü kimi, martda xarici investorların Amerika qiymətli kağızlarından imtinası görünməmiş həddə çatıb. Bir ay ərzində xarici investorlar 256 milyard dollarlıq qiymətli kağızdan yaxa qurtararaq, ümumi portfeli 6,81 trilyon dollara endiriblər. İnkişaf etməkdə olan ölkələrin mərkəzi bankları da ABŞ istiqrazlarını aktiv şəkildə satıblar. Digər tərəfdən, koronavirus böhranı fonunda düşən milli valyutaları dəstəkləmək üçün onlara dollar tələb olunub. Səudiyyə Ərəbistanı bu dönəmdə ən iri satıcı olub, krallıq 25,3 milyard dollarlıq qiymətli kağızlardan imtina edib. Braziliya və Hindistanda göstəricilər bir qədər azdır, müvafiq olaraq 21,5 və 21 milyard dollar. Vaşinqton üçün bunun nəticəsi yaxşı olmayacaq, çünki ABŞ-ın yarım trilyonluq büdcə kəsiri əsasən dövlət istiqrazlarının satışı ilə qarşılanır. Analitiklər qeyd edirlər ki, Amerika borcunun satışı rekord və gözlənilməz həddə çatıb. Əvvəlki böhranlarda, məsələn, 2008-ci ildə qiymətli kağızlara tələbat, əksinə, artırdı. Xarici sərmayədarların axınının öhdəsindən gəlmək və büdcə kəsirini qapamaq üçün isə indi Federal Ehtiyat Sistemi çap dəzgahını tam gücü ilə işə salıb. Qurum qeyri-məhdud miqdarda kağız aldığını elan edib və yalnız iki ay ərzində balansını 2,9 trilyon dollar artırıb". Ekspertə görə, iqtisadiyyata iri miqyasda pul köçürmələrinin Amerika valyutasına necə təsir göstərəcəyi aydın deyil. Böhrana qarşı tədbir kimi Federal Ehtiyat Sistemi heç bir şeylə təmin edilməyən dolları çap edir, onları heç bir qiymətli aktiv almadan və yalnız öhdəliklərini artıraraq paylayır. FES-in balansı 6,42 trilyon dollara yüksəlib, bu, Amerikanın böhrandan əvvəlki ümumi daxili məhsulunun təxminən 30 faizidir.



İri bankların hesablamalarına görə, 2020-ci ildə ABŞ-ın büdcə kəsiri 4 trilyon dollara, yəni İkinci Dünya müharibəsi dövründən ən yüksək həddə qalxacaq. Federal Ehtiyat Sisteminin balansı isə, analitiklərin fikrincə, koronavirus böhranının bitməsinədək 10 trilyon dollara çatacaq. Bütün bunların, əslində çap maşınının işinin nəticəsi olması səbəbindən investorlar heç bir şeylə təmin edilməyən valyutadan üz döndərəcək. Yəni dollar üzərində daha böyük təhlükə yaranacaq. Məhz bu durumda Azərbaycanın da dollar və ABŞ qiymətli kağızları ilə bağlı siyasətində müəyyən dəyişikliklər etməsi qaçılmaz sayılır.

***Ramil QULİYEV***

# Bakıda maraqlı pandemiya monitorinqi - cəmi 10 faiz əhali maska taxır

**Azərbaycan ərazisində xüsusi karantin rejimi ilə əlaqədar tətbiq edilən bəzi məhdudiyyətlərin aradan qaldırılmasına baxmayaraq, ölkəmizdə maska taxmaq zəruridir. Maskanın geyinilməsində əsas məqsəd bilmədən ətrafdakıları da virusa yoluxdurmağın qarşısını almaqdır.**

***Adil Qeybulla:*** *"Karantin rejimi bitəndən sonra Azərbaycanda da müəyyən müddətdə insanların maska taxması məcburi olmalıdır"*

***Aydın Əliyev:*** *"Maskanın geyinilməsində əsas məqsəd odur ki, bilmədən ətrafdakıları da virusa yoluxdurmuş olmayasan"*



Bununla yanaşı, asqırıb-öskürəndə, adi ünsiyyət zamanı tüpürcək vasitəsilə də ətrafa virus yayılır. Bu səbəbdən də mütəxəssislər tibbi maska taxmağı tövsiyə edirlər.

Karantin rejimi ilə əlaqədar olaraq evdən çölə çıxan hər bir şəxs mütləq tibbi maska taxmalıdır. Ancaq bəzi sakinlər nə öz sağlamlıqlarını, nə də yaxınlarını düşünür. Aparılan araşdırmalara görə, paytaxt saxinləri tibbi maskadan az istifadə edirlər.

Bir neçə gün öncə Nazirlər Kabineti yanında Operativ Qərargahın təşkil etdiyi mətbuat konfransında iştirak edən Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov bildirib ki, aparılan işlərə baxmayaraq, vətəndaşlar tibbi maskadan istifadə etməsələr, sosial məsafəni saxlamasalar, koronavirusa yoluxmada ikinci dalğadan özümüzü qoruya bilməyəcəyik: "İctimai nəqliyyatda bir şəkil çəkilib. Bakıda avtobusda çəkilən şəkildə bir nəfər belə maska taxmayıb. Bakı sakinlərinə müraciət edirəm ki, qaydalara riayət edək".

Maraqlıdır, paytaxt sakinləri maska taxmağa niyə meylli deyillər? Nəzərə almaq lazımdır ki, əhalinin çox olduğu ərazidə virusun yayılma risqi də yüksək olur. Bu səbəbdən də koronavirus epidemiyası tam bitməyənə qədər hər kəs tibbi maskadan istifadə etməlidir.

Onu da bildirək ki, respublikanın baş infeksionisti Cəlal İsayev son çıxışında maska taxmağın məcburi olmasının vacibliyini bildirib: "Çünki xəstəliyi yüngül keçirən insanlar var ki, onlarda müəyyən simptomların olması mümkündür. Həmin insanlar xəstəliyin hansısa əlamətini özündə hiss etməsə də, virus ifraz etməkdə davam edirlər. Bu baxımdan, hər bir insan təhlükəlidir. Ona görə də karantin rejimi bitəndən sonra Azərbaycanda da müəyyən müddətdə insanların maska taxması məcburi olmalıdır".

Radioloq-həkim Aydın Əliyev bildirdi ki, maskanın taxılması zəruri olmalıdır: "Bəzi insanlar virus daşıyıcısı olduğu halda bilmirlər ki, onda virus var. Belə olan halda da o, asqırıb-öskürəndə ətrafa virus yayır. Maskanın geyinilməsində əsas məqsəd odur ki, bilmədən ətrafdakıları da virusa yoluxdurmuş olmayasan. Bizim virus yaymağımız üçün təkcə asqırıb-öskürməyimiz faktor deyil. Adi ünsiyyət zamanı tüpürcək vasitəsilə də qarşı tərəfi yoluxdura bilərik. Özümüzdən asılı olmayaraq, ağız suyunu kənara xaric edirik, maska bu ağız suyunun ötürülməsinin qarşısını alır".

A.Əliyev adi tibbi maskanın keyfiyyəti məsələsinə də toxunub: "Bəzən düşünürlər ki, tibbi-cərrahi maska virusun yayılmasının qarşısını almır, gərək xüsusi respiratorlu bahalı maskalardan istifadə olunsun. Amma bu fikirlər yanlışdır. Adi tibbi maska belə virus yayılması risqini 90 faizədək azaldır".

Professor, tibbi ekspert Adil Qeybulla qeyd etdi ki, maska taxmaq məcburi olmalıdır: "Çünki xəstəliyi yüngül keçirən insanlar var ki, onlarda müəyyən simptomların olması mümkündür. Hətta simptomsuz virusgəzdirənlik ola bilər. Həmin insanlar xəstəliyin hansısa əlamətini özündə hiss etməsə də, virus ifraz etməkdə davam edirlər. Bu baxımdan hər bir insan təhlükəlidir. Ona görə də karantin rejimi bitəndən sonra Azərbaycanda da müəyyən müddətdə insanların maska taxması məcburi olmalıdır".

Həmsöhbətimiz onu da əlavə etdi ki, virusların əksəriyyəti hava-damcı yolu ilə yayılır. Maskalar isə havadakı virusları keçirtmədiyi üçün effektlidir: "Bu maskalar virusların yayılmasının qarşısını almaqda xüsusi kömək etmiş olur. Lakin maskalardan daimi istifadəyə ehtiyac yoxdur. İnsanların kütləvi olduğu yerlərdə, ictimai nəqliyyatda, metroda və s. taxmaq lazımdır. Bəzən insanlar xəstə olarkən ev şəraitində də maskadan istifadə edirlər. Evdə qoruyucu maska taxmağa ehtiyac yoxdur. Onun əvəzində otağın havasını dəyişmək, otağa gün işığının düşməsini təmin etmək lazımdır".

***Günel CƏLİLOVA***



# Sabiq sosial müdafiə məmurunun 83 min manatlıq fırıldağının üstü açıldı

**Baş Prokurorluğun məlumatına görə, Azərbaycan Respublikasında dövlət strukturlarının əhalinin sağlamlığının qorunması və aidiyyəti sahələr üzrə xidməti fəaliyyətin təşkili istiqamətində səfərbər olunduğu bir vaxtda bəzi vəzifəli şəxslərin mövcud vəziyyətdən öz maraqları naminə istifadə edərək, vətəndaşların və dövlətin qanunla qorunan mənafelərinə zərər vuran, hakimiyyət orqanlarının işinə kölgə salan hüquqazidd əməllərə yol verməlinə dair məlumatlar əsasında araşdırmalar aparılmaqla qanunamüvafiq tədbirlər həyata keçirilir.**

Belə ki, Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi yanında Dövlət Sosial Müdafiə Fondunun Nəsimi rayon şöbəsinin sabiq əməkdaşı Ramiz Seyidəliyevin qanunsuz əməlləri barədə vətəndaşın daxil olmuş müraciəti Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırılıb.

Araşdırma zamanı Ramiz Seyidəliyevin qulluq mövqeyindən istifadə edərək, vətəndaşı pensiya məbləğinin artırılmasına kömək edəcəyi vədi ilə aldadıb pensiya kartını qanunsuz götürməklə 2013-2018-ci illər ərzində həmin kartdan ümumilikdə 83 min manat məbləğində pul vəsaitini ələ keçirməsinə əsaslı şübhələr müəyyən edilib.

R.Seyidəliyev Cinayət Məcəlləsinin 178.3.2 (qulluq mövqeyindən istifadə etməklə küllü miqdarda dələduzluq) və 29, 178.3.2-ci(dələduzluğa cəhd)maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

Hazırda iş üzrə qeyd olunan qanunsuz halların tam və hərtərəfli araşdırılmaqla zərərçəkmiş şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq tədbirləri davam etdirilir.

Respublika Prokurorluğu qeyd olunan qanunazidd hallarla üzləşən zərərçəkmiş şəxslərdən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin "161" nömrəli "Qaynar xətt" əlaqə mərkəzinə zəng etmələrini xahiş edir.

# Azərbaycanın mədəniyyət sisteminin ağlamalı günü...

## *Aydın Xan Əbilov: "Müxtəlif şəxslərin adlarına ştatların açılması və onların maaş almaması..."*

**Bir neçə gün əvvəl Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) Mədəniyyət Nazirliyində apardığı əməliyyatdan sonra bu sistemdə mövcud olan digər neqativ hallar da üzə çıxıb. Mədəniyyət nazirinin müavini Rafiq Bayramovun həbsindən sonra onun kurasiya etdiyi sahələrdən bir neçəsində, daha dəqiq desək, musiqi məktəblərində, klub və mədəniyyət evlərində ciddi faktlar aşkarlanıb.**

Yeri gəlmişkən, hələ R.Bayramovun həbsindən xeyli müddət əvvəl onun Bakıda və rayonlardakı musiqi məktəblərinə, klub və mədəniyyət evlərinə "tas" qoyduğu barədə məlumatlar dolaşırdı. Bunun nə dərəcədə həqiqət olub-olmadığını deyə bilmərik. Bu məsələni istintaq aşkara çıxaracaq.

Amma bu arada Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin nəzdində H.Sarabski adına 7 nömrəli Uşaq Musiqi Məktəbinin direktoru Mehriban Rüstəmovanın məktəbdə işləyən müəllimlərin əməkhaqlarını mənimsəməsi barədə daxil olmuş məlumatın Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində araşdırıldığına dair məlumat yayılıb.

Baş Prokurorluğun Mətbuat Xidmətindən mətbuata verilən məlumata görə, keçirilən istintaq-əməliyyat tədbirləri nəticəsində Mehriban Rüstəmovanın vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, məktəbdə çalışan ayrı-ayrı müəllimlərə məxsus əməkhaqqı kartlarını qanunsuz ələ keçirib həmin kartlara köçürülmüş pul vəsaitlərini bankomatdan şəxsən çıxarmaqla, habelə müəllimlərin əməkhaqqı kartlarına köçürülmüş aylıq əməkhaqqının əhəmiyyətli hissəsini tələb edərək, küllü miqdarda pul vəsaitini mənimsəməsinə əsaslı şübhələr müəyyən edildiyindən, fakt üzrə Cinayət Məcəlləsinin 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddəsi ilə cinayət işi başlanıb.

Məhkəmə qərarına əsasən, M.Rüstəmovanın xidməti otağında, ona məxsus, Nəsimi rayonunda yerləşən yaşayış evində və avtomobilində keçirilmiş axtarış nəticəsində rəhbərlik etdiyi musiqi məktəbinin müəllimlərinin adlarına olan 40 ədəd plastik kart, müxtəlif ölkələrin valyutalarında saxlanan 40 min manata yaxın pul vəsaiti, musiqi məktəbinin şagirdlərinin adına olan 36 ədəd şəhadətnamə, məktəbin tarifləşmə və tabel cədvəlləri, əmr kitabı, 1 ədəd "notebook" və iş üçün əhəmiyyət kəsb edən digər sənəd və əşyalar aşkar edilərək götürülüb.

İstintaq zamanı M.Rüstəmovanın müəllimlərin adına olan 40 ədəd əməkhaqqına dair plastik kartı özündə saxlayaraq, həmin kartlara köçürülən pul vəsaitlərini bankomat vasitəsilə ələ keçirərək mənimsəməsi özünün etirafı, eləcə də iş üzrə toplanan digər sübutlarla təsdiqini tapıb.

İlkin sübutlara, həmçinin, M.Rüstəmovanın məktəbin müəllimlərindən qanunsuz yollarla topladığı pul vəsaitinin bir qismini qabaqcadan əldə edilən razılaşmaya uyğun olaraq, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin əməkdaşına verməsi, digər qisminin isə özü tərəfindən mənimsənilməsinə əsaslı şübhələr müəyyən edilib.

Hazırda iş üzrə bütün qanunazidd halların tam və hərtərəfli araşdırılmaqla təqsirli şəxslərin dairəsinin müəyyənləşdirilməsi istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

Hesab edirik ki, hüquq-mühafizə orqanları bölgələrdəki regional mədəniyyət idarələrində də ciddi yoxlamalar həyata keçirilməlidirlər. Çünki bu gün mədəniyyət sahəsində ixtisas sahibi olmayan, eyni zamanda da dövlət qulluqçusu statusu qazanmayan insanlar əsasən bölgələrdəki mədəniyyət ocaqlarında ştata götürülüblər.

Mədəniyyətlə bağlı qurumlarda, musiqi məktəblərində bu kimi çirkinliklərin olması təəssüf doğurur.



*"Mədəniyyətin digər sahələrində olduğu kimi, musiqi məktəblərində də ciddi yeyinti faktları mövcuddur"*

İNK baş katibi, Yeni Yazarlar və Sənətçilər İctimai Birliyinin sədri, yazıçı-kulturoloq Aydın Xan Əbilov bakixeber.com-a bildirdi ki, bütün dünya liderləri postpandemiyanın yeni yaşam tərzi, yeni dünya düzəni aşılayacağını bildirirlər. "Bu, dövlət idarəçiliyində də özünü göstərməlidir. Azərbaycan bu prosesə daha tez başladı və bilirsiniz ki, hələ virus yayılmamışdan əvvəl parlament seçkiləri keçirildi, bir çox komitə və nazirliklərin rəhbərliyinə ABŞ, Avropa təhsilli, eyni zamanda da müxtəlif beynəlxalq təşkilatlarda təcrübə keçmiş şəxslər gətirildi. Bununla yanaşı, icra strukturlarında, yerlərdə icra hakimiyyəti başçıları da dəyişdirildilər, onlar da gənclərlə əvəzləndilər. Bu proses cəmiyyətin müxtəlif təbəqələri, hətta radikal müxalifət tərəfindən də dəyərləndirildi, qiymətləndirildi, beynəlxalq təşkilatlar da kadr islahatlarının çox müsbət bir addım olduğunu bildirdilər, hətta müsbət bir təcrübə kimi bu nümunəni başqa ölkələrə də təqdim etdilər. Müxtəlif sahələrdə olduğu kimi, elm, təhsil və mədəniyyət sahəsində də böyük islahatlara start verildi. Başqa sahələrdə bu islahatlar dərk edilsə də, buna elə də müsbət reaksiya verməyən, bu proseslərdən geridə qalan mədəniyyət sahəsi oldu. Son günlər Mədəniyyət Nazirliyi strukturunda baş verən hadisələr, Xidmət rəisinin və nazir müavininin həbs edilməsi, korrupsiya faktlarının ortaya çıxması bu sahədə nə qədər ciddi böhran yaşandığını açıq şəkildə göstərir. Ölkə başçısı dəfələrlə istər mərkəzi, istərsə də yerli icra strukturlarının, nazirliklərin, komitələrin, eləcə də digər qurumların işlərinin tam şəffaf şəkildə qurulmalı, onların ictimaiyyətə açıq olmalı olduğunu, vətəndaş məmnunluğunun təmin edilməsinə çalışmalı olduqlarını qeyd edib. Ölkə başçısının bu barədə etdiyi çağırış və bəyanatlar, əslində, onlara düzgün yol və istiqamət göstərir.

25-30 il nəyinsə, kiminsə xatirinə vəzifədə qalmış iri ranqli məmurların xeyli bir qismi ölkə başçısının çağırışlarından nəticə çıxarmaq istəmədi. Əlbəttə, Əbülfəs Qarayevin mədəniyyət sahəsində gördüyü işləri yüksək qiymətləndiririk. Ama onun və onun kimilərin uzun illər eyni vəzifədə qalması mövcud problemlərin yaranmasına gətirib çıxarır. Eyni zamanda, mədəniyyət qurumlarının, evlərinin yerlərdə icra hakimiyyətlərinə tabe edilməsi və bir çox icra başçısının mədəniyyət idarələrinə haqq qoyması faktları da var. Onlar hətta ən kiçik mədəniyyət müəssisələrinə belə, kitabxanalara, klub və mədəniyyət evlərinə, musiqi məktəblərinə işçilərin götürülməsində qeyri-şəffaflığa yol verirlər, bir sıra hallarda burada korrupsiya meylləri özünü göstərir. Həmçinin də musiqi məktəblərində, kitabxanalarda, klub və mədəniyyət evlərində həmin qurumlara rəhbərlik edənlərin yaxın qohumlarının, ailə üzvlərinin, yaxud da heç bu sahəyə aidiyyəti olmayan müxtəlif şəxslərin adlarına ştatların açılması və onların maaş almaması, bu "işçilər"in adlarına açılan plastik kartlara ödənilən vəsaitin direktorlar tərəfindən mənimsənilməsi halları var. Bu fakt geniş yayılıb və araşdırmalar da göstərir ki, bəzən bir mədəniyyət müəssisəsinin direktorunun əlində "ölü canlar"a aid 30-40 plastik kart var. Bu halın geniş miqyas almasının qarşısının alınması istiqamətində artıq hüquq-mühafizə orqanları hərəkətə keçib və bu istiqamətdə xeyli təmizlənmə işləri aparılıb. Əlbəttə, bütün bunlar dövlət başçısının siyasi iradəsindən irəli gəlir. Dövrün çağırışlarına cavab olaraq, ölkə başçısı bu neqativ halların aradan qaldırılması üçün çevik reaksiya verdi və bu neqativliklərin kökünün kəsilməsi üçün əlaqədar strukturlara göstərişlər verdi".

A.X.Əbilov vurğuladı ki, son dövlər mədəniyyət işçilərinin əməkhaqqının qaldırılması, onlara dəstək göstərilməsi, açılan sosial iş sahələrində mədəniyyətlə bağlı istiqamətlərə xüsusi önəm verilməsi təqdirəlayiqdir. O qeyd etdi ki, dövlət dəstəyi alan və sosial işlə təmin edilən mədəniyyət işçilərinə əməkhaqqı kart vasitəsilə köçürülüb. "Təəssüflər olsun ki, bəzi məmurlar da Prezidentin tapşırığı ilə yaradılan ictimai-sosial iş yerlərindən sui-istifadə etdilər, kartları ələ keçirib dövlətin külli miqdarda vəsaitini mənimsədilər. Hazırda həmin məmurlarla bağlı cinayət işi açılıb" - deyə ekspert bildirdi.

O, həmçinin, qeyd etdi ki, mədəniyyət sahəsində 25-30 il can qoyan insanların fəxri ad, mükafat ala bilmədiyi təqdirdə, heç bir sənəti, ifası olmayan, barlarda, kafe-restoranlarda oxuyan şəxslərə pul qarşılığında fəxri adlar verilib: "İnanmaq istəyirəm ki, nazirin bundan xəbəri yoxdur. Nazirliyin digər yüksək vəzifəli məmurlarına 10 min, 20-30, 50 min manat pul verib "əməkdar artist", "xalq artisti" adı alan insanlar peyda olub. Bulanıq suda balıq tutmağa meyl edən bəzi məmurlar onlarla sövdələşməyə, bazarlaşmaya gediblər. Onlar dövlətin mədəni-ictimai siyasətinə qarşı sabotajlarla məşğul idilər. Uzun müddət görkəmli mədəniyyət adamları bir kənarda qaldı və manısılar, manısçalar, eyni zamanda da sənətə aidiyyəti olmayan adamlara fəxri adlar paylanmağa başlandı. Bu da, əlbəttə ki, narazılıqlara gətirib çıxarırdı.

Məlum olduğu kimi, mədəniyyətin digər sahələrində olduğu kimi, musiqi məktəblərində də ciddi yeyinti faktları mövcuddur. Yalnız musiqi məktəblərində deyil bu faktlar. Baxın görün, mədəniyyət mərkəzləri, mədəniyyət evləri, kitabxanalar nə gündədir. Təəssüf ki, Sovet dövründə kəndlərdə, qəsəbələrdə inşa olunan və uzun müddət xalqa xidmət edən mədəniyyət evləri, klublar, aidiyyəti müəssisələr bərbad vəziyyətdədir, bəziləri isə tamamilə bağlanıb, kitabxanalar da qapadılıb. Təsəvvür edin ki, ölkəmizin bir nömrəli kitabxanası olan Milli Kitabxanadan kiril əlifbası ilə olan kitabları kamazlara yığıb maklatura kimi hansısa qurumlara verirdilər və onun da pulunu nə etdiklərini özləri bilirdilər. Dəxli olmayan şəxslərin konsertinə yüzminlərlə pul xərclənirdi, amma mədəniyyətimizin gələcəyi üçün işlər görənlərə heç bir dəstək göstərilmirdi. Biz dəfələrlə kitabxana.net portalına görə nazirliyə müraciət etdik ki, bizə yer və pul verməyin, sadəcə, bizi müasir avadanlıqlarla, güclü internetlə təmin edin ki, Azərbaycan kitabxanalarını elektronlaşdırıb dünyaya yayaq, amma reaksiya verilmədi". A.X.Əbilov bildirdi ki, bu neqativ hallar beynəlxalq kitab bayramlarında da özünü göstərirdi.

***İradə SARIYEVA***

№ 82 (4213) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

www.baki-xeber.com

21 MAY 2020-ci il

# Koronavirus yüksək səslə danışanda da yayılır



**SARS-CoV-2 virusu təkcə öskürək və asqırıqla deyil, yüksək səslə danışanda, eyni zamanda, qışqıranda da yayılır.**

"Milli.Az" xəbər verir ki, bu barədə ABŞ Milli Səhiyyə İnstitutu araşdırma aparıb. Araşdırma nəticəsində məlum olub ki, virus daşıyıcısı şəxs maskasız yüksək səslə danışanda və ya qışqıranda ətrafa tüpürcəklə birlikdə yayılan virus damcıları 8-14 dəqiqə havada qalır. Araşdırmaya qatılan şəxslərin 1 dəqiqə ərzində danışığı zamanı ətrafa ən az 1000 viruslu damla yaydığı təsbit olunub. Maska taxmağın həyati əhəmiyyətə sahib olduğunu vurğulayan araşdırmaçılar ətrafa yayılan damcı sayının 100 minə çata biləcəyini qeyd ediblər.

# Diş əti qanamasının bilmədiyiniz təhlükəli səbəbləri......



**Diş ətinin qanamasının əsas səbəbi dişləri düzgün fırçalamamaq, bərk sürtməkdir. Lakin bunun digər daha təhlükəli səbəbləri də var.**

"Saglamolun.az" bildirir ki, insanların əksəriyyəti diş ətinin qanamasına ciddi simptom kimi baxmır və bu çox səhv yanaşmadır. Diş ətinin qanamasının gizli səbəbləri arasında hormonal fonun pozulmaları, orqanizmdə C vitamininin çatışmazlığı, qan laxtalanmasının pozulmaları, qan xərçəngi var.

**Diş ətiniz qanayırsa, ilk növbədə, daha yumşaq fırçadan istifadə edin, dişlərinizi ehtiyatla fırçalayın. Əgər bu, kömək etmirsə, həkimə müraciət edin.**

# 85 yaşlı, 22 kq çəkisi olan qadın koronavirusdan sağalıb

**Hindistanın Odişa ştatında həkimləri təəccübləndirən hadisə baş verib. "Milli.Az" xəbər verir ki, 85 yaşlı, 22 kq çəkisi olan qadın koronavirusdan sağalaraq evə buraxılıb.**

Onun çəkisinin anormal olmasına baxmayaraq, virusa qalib gələ bilib. Bundan öncə İspaniyada 113 yaşlı uzunömürlü qadın Mariya Branyas koronavirusdan sağalan ən yaşlı pasiyent kimi tarixə düşmüşdü.




**Qoç** - Səhər saatlarında günə aktiv başlayın, vaxtınızı boş keçirməyin. İşə və ya təhsil müəssisəsinə gecikməyin. İctimai nəqliyyatda gecikmələr yarana bilər. Buna görə də evdən bir qədər tez çıxın.


**Buğa** - Bu gün sizə məsul iş tapşırıla bilər. Günün ikinci yarısında əhvalınızın dəyişməsi istisna deyil. Əvəzində maliyyə işlərində irəliləyiş olacaq. Axşam saatlarında mənəvi dəstək alacaqsınız.


**Əkizlər** - Bu gün sizdən ünsiyyətlərdə diqqət, iş yerində və təhsil müəssisəsində təmkin, söhbətlərdə konkretlik tələb olunur. Yaxınlarınız və sizə əziz olan insanlara əsla yalan danışmayın.


**Xərçəng** - Pozitiv düşüncə ilə bağlı problemləriz yaranmasın. Əvvəl başladığınız işləri başa vurun və sədlərlə qarşılaşıb maneələri dəf etməli olsanız, ruhdan düşməyin. Sosial şəbəkələrdə mübahisələrə qatılmayın.


**Şir** - İndiyədək yararlanmadığınız və ya istifadə etmək istəmədiyiniz bacarıqları işə salın. Məqsədinizə çatmaq üçün yaranmış şəraiti anlamalı, detalları götür-qoy etməli, dostlarınız, müttəfiqləriniz, tərəfdarlarınızla yanaşı, bədxahlarınızı da dəqiq müəyyənləşdirməlisiniz.


**Qız** - Yalnız anadangəlmə bacarıq və sonradan əldə etdiyiniz biliklərə güvənməyin. İmkan yaranan kimi təcrübənizi və biiklərinizi artırmağa çalışın. Axşam saatlarına yaxın maraqlı təklif ala bilərsiniz.


**Tərəzi** - Gün ərzində nələr baş verirsə-versin - ruhdan düşməyin və əsla geri çəkilməyin. İmkan və istedadlarınızı da kimsədən gizlətməyin. Əgər bacarıqlarınızdan hələ də tam miqyasda istifadə edə bilmirsinizsə, onların tətbiqi üçün yeni sahə və ya müstəvini müəyyənləşdirin.


**Əqrəb** - Bu gün sizi aldatmaq və ya yalanlar toruna salmaq çətin olacaq. Müstəqil olun, enerjili davranın, potensialınızı reallaşdırın. Hədəfi konkret müəyyənləşdirin və ona doğru irəliləyin.


**Oxatan** - Qazlı su içməyin, şirniyyata və ya küçədə açıq satılan təamlara aludə olmayın. Alış-verişdə bədxərclik etməyin və pulların xərclənməsinin məntiqi yolunun paltar, telefon və ya əyləncə olduğunu düşünməyin.


**Oğlaq** - Bu gün enerjili, gülərüz, orijinal olun. Səhər saatlarından etibarən başlayacaq gərgin iş qrafiki, bir-birlərini əvəzləyəcək hadisələrə hazır olmalısınız. Yardım gözləməyin, dəstəyə bel bağlamayın.


**Dolça** - Gün ərzində ünsiyyət, xoş söhbətlər, əyləncəyə can atsanız da, hisslərinizi cilovlayın. Yox, fikirləşməyin ki, siz işdə hamıdan çox zəhmət çəkirsiniz, rəhbərlik isə bunu görmür.


**Balıqlar** - Özünüzü zəif göstərməyin. İşi, həvalə edilən tapşırığı başa vurmamış dincəlməyin. Sirr kimi saxladığınız informasiyadan artıq başqalarının xəbəri var, amma bunu hələ bilmirsiniz.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*



*Hazırladı: Namiq QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*
Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846
Qəzet həftədə 5 dəfə çıxır.
(Bazar və bazar ertəsindən başqa).
«BZ»-də çap olunur.
*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.